QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 132 (5604) 17 **iyul** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Azərbaycanın Şimal Alyansı ilə əlaqələri inkişaf edir

*Brüsseldə keçirilən görüş də bunu bir daha təsdiqlədi*

Səh 2



3

**Əli Həsənov: "Gəncədə xainlər dövlətçiliyə əl qaldırmaq istədilər"**



8

**Gəncədən sonra Sumqayıt - bu, bir təsadüfdürmü? Və ya Qumdan Azərbaycana uzanan qara əllər kökündən kəsilir**



10

**Sahib Məmmədov: "Təxribatları təşkil edən qüvvələr bilirdilər ki..."**



# Azərbaycanın Şimal Alyansı ilə əlaqələri inkişaf edir

## *Brüsseldə keçirilən görüş də bunu bir daha təsdiqlədi*

***Məlum olduğu kimi, iyulun 11-də Brüsseldə NATO-nun müttəfiq və tərəfdaş ölkələrinin dövlət və hökumət başçıları üçün təşkil olunan qəbulda iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk ilə görüşüb.***

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında siyasi, iqtisadi, energetika, nəqliyyat və digər sahələrdə uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olunub. Azərbaycanın Avropanın enerji təhlükəsizliyində artan rolu və bu yaxınlarda rəsmi açılışı olan TANAP layihəsinin bu məsələdə böyük əhəmiyyəti vurğulanıb. Eyni zamanda, Azərbaycanın yerləşdiyi regiondakı vəziyyət, regional təhlükəsizlik və çağırışlar haqqında da fikir mübadiləsi aparılıb.





Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müzakirə olunub. Prezident İlham Əliyev münaqişənin hazırkı vəziyyəti barədə məlumat verib.

Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk Azərbaycanın dünyəvi və müasir cəmiyyət quruculuğu sahəsində müsbət təcrübəyə malik olduğunu qeyd edib. Söhbət zamanı Azərbaycanda insan haqları ilə bağlı vəziyyət, bu sahədə həyata keçiriləcək Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı barədə məsələlər müzakirə olunub.

Prezident İlham Əliyev və Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk Azərbaycan ilə Avropa İttifaqı arasında bu gün paraflanacaq "Tərəfdaşlıq prioritetləri" sənədini yüksək qiymətləndirdilər, bu sənədin Azərbaycan-Avropa İttifaqı tərəfdaşlıq əlaqələrinin gələcək inkişafı üçün yeni imkanlar açacağını məmnuniyyətlə qeyd etdilər.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun iştirakı ilə "Tərəfdaşlıq prioritetləri" sənədinin paraflanması mərasimi olub.

Sənədi Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Avropa Komissiyasının vitse-prezidenti, xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Federika Moqerini parafladılar. Sənədin birinci bəndində qeyd edildiyi kimi, əməkdaşlığın daha da gücləndirilməsi məqsədilə qarşılıqlı maraq və birgə dəyərlərə əsaslanaraq Azərbaycan və Avropa İttifaqı tərəfindən birgə tərəfdaşlıq prioritetləri razılaşdırılıb. Eyni zamanda, birinci bənddə hər iki tərəfin ölkələrin ərazi bütövlüyü, müstəqilliyi və suverenliyi ilə yanaşı, dövlətlərin beynəlxalq sərhədlərin toxunulmazlığının dəstəklənməsinə sadiqliyi ifadə olunur.

Sənəddə Azərbaycanın əlverişli geostrateji mövqeyə malik olması, ölkəmizin Şərq-Qərb və Şimal-Cənub nəqliyyat və enerji layihələrinin həyata keçirilməsinə verdiyi töhfə də Avropa İttifaqı tərəfindən vurğulanır. Eyni zamanda, "Cənub Qaz Dəhlizi" layihəsinin tezliklə tam yekunlaşmasının və bunun nəticəsində Avropa bazarlarına təbii qazın çatdırılmasının əsas prioritetlər sırasında olduğu bildirilir.

Sənəddə Azərbaycanın mədəniyyətlərarası dialoqun inkişafına verdiyi töhfənin əhəmiyyəti vurğulanır və bu sahədə Avropa İttifaqının Azərbaycanla əməkdaşlığa xüsusi marağı olduğu bildirilir. Eyni zamanda, paraflanan sənəddə Azərbaycan ilə Avropa İttifaqı arasında vizaların ləğvi sahəsində dialoqun perspektivləri də əksini tapıb.

## Azərbaycan-NATO əlaqələri qarşılıqlı maraqlar əsasında uğurla inkişaf edir

Keçirilən görüş bir daha göstərir ki, Azərbaycanın xarici siyasətində beynəlxalq təşkilatlarla münasibətlərin qurulması və inkişaf etdirilməsi prioritet istiqamətlərdən biridir. Bu siyasətin nəticəsi olaraq Azərbaycan dünyanın ən mötəbər beynəlxalq təşkilatlarının - BMT, ATƏT, Avropa Şurası, İslam Konfransı Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər mötəbər qurumların üzvü kimi onların işində yaxından iştirak edir.

Xüsusi olaraq vurğulamaq lazımdır ki, 1994-cü ildən başlayaraq Azərbaycan-NATO əlaqələri yüksələn xətlə inkişaf edir. Bu əlaqələrin əsas tərkib hissəsini hərbi əməkdaşlıq, hərbi modernizasiya, təhlükəsizlik məsələləri üzrə siyasi məsləhətləşmələr, sülhməramlı əməliyyatlar, təhlükəsizlik sektorunun islahatı, mülki-fövqəladə planlaşdırma, təhlükəsizliklə əlaqədar elmi, iqtisadi və ətraf mühit üzrə əməkdaşlıq məsələləri təşkil edir. Antiterror koalisiyasının üzvü olan Azərbaycanın hərbi bölmələri bu müddətdə NATO qüvvələri tərkibində keçirilən sülhyaratma missiyasında yaxından iştirak edir. Bu, o deməkdir ki, Azərbaycan regional müstəvi ilə yanaşı, qlobal miqyasda da təhlükəsizliyə töhfə verən ölkədir. Öz növbəsində, NATO rəsmiləri münaqişə ocaqlarının söndürülməsində qlobal planda sülh və sabitliyin təminatında Azərbaycanın potensialını yüksək qiymətləndirirlər.

Bütövlükdə, Azərbaycan NATO ilə ortaq maraq kəsb edən geniş spektrli məsələlər üzrə siyasi dialoq aparır. Müxtəlif formatlarda və səviyyələrdə aparılan dialoq çərçivəsində tərəfdaşlıq, regional təhlükəsizlik, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, əməliyyatlarda iştirak, Əfqanıstana töhfə, meydana gələn təhlükəsizlik təhdidləri və s. aktual məsələlər müzakirə olunur, eləcə də, praktiki əməkdaşlığın vəziyyətinə qiymət verilir.

Beləliklə, Prezident İlham Əliyevin Brüsselə səfəri göstərdi ki, Azərbaycanla NATO arasında əməkdaşlıq yüksələn xətlə inkişaf edir. Eyni zamanda, bir daha təsdiq olundu ki, NATO Azərbaycana bölgədə mühüm rol oynayan tərəfdaş ölkə kimi yanaşır.

**RƏFİQƏ HÜSEYNOVA**

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Azərbaycanda nəşr olunan qəzetlərə maliyyə yardımının ayrılması haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycanda nəşr olunan qəzetlərə birdəfəlik maliyyə yardımı göstərmək üçün 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Prezidentinin ehtiyat fondundan Azərbaycan Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna 1 milyon manat ayrılır.

Maliyyə Nazirliyinə bu Sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etmək tapşırılıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) işçilərinin təltif edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun Himayəçilik Şurası üzvlərinin təyin edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev yerin təkindən istifadə olunmasının, onun mühafizəsi və idarə edilməsi mexanizmlərinin təkmilləşdirilməsi, bu sahəyə dövlət nəzarətinin gücləndirilməsi tədbirləri haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1231-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikası vətəndaşının yeni nəsil şəxsiyyət vəsiqəsinin tətbiqi məqsədləri ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1217-VQD nömrəli Qanununun tətbiqi barədə Sərəncam imzalayıb.

## Əli Həsənov: “Gəncədə xainlər dövlətçiliyə əl qaldırmaq istədilər”



Türkiyədə dövlət çevrilişinə cəhdin ikinci ildönümü ilə əlaqədar olaraq bu ölkənin Azərbaycandakı səfirliyində anım təbiri keçirilib. Anım tədbirində çıxış edən Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov deyib ki, Türkiyədə 2016-cı ilin iyulun 15-də baş verən hadisələrdə xalqın iradə ortaya qoyması qürurvericidir. Bu, qəhrəmanlıq salnaməsidir. Əli Həsənov bildirib ki, Türkiyədə baş verənlər bu il Gəncədə baş verən iğtişaşlarla oxşar olub: “Gəncədə xainlər dövlətçiliyə əl qaldırmaq istədilər. Onlar iki polis zabitini qətlə yetiriblər. Həmin qüvvələr məqsədlərinə nail ola bilmədilər. Bunlar Türkiyədə baş verən hadisə ilə oxşardır”.

Prezidentin köməkçisi deyib ki, 15 iyul gecəsini Azərbaycan Prezidenti və xalqı həyacanla seyr etdi: “Biz bu məsələdə Türkiyəyə lazımi dəstəyi verdik, Türkiyə xalqının yanında olduq. 1990-cı ilin yanvarında Azərbaycana faciə yaşadanlar ermənilər, erməni xisləti olanlar idi. Amma Türkiyədəki hadisələri törədənlər ölkə ilə bağlılıqları var idi. Bütün hallarda millətin iradəsinə qarşı gedənlər məğlub olurlar”.

Əli Həsənov qeyd edib ki, millətin üzərinə tankla, silahla getmək olar, amma milli iradə ortadadırsa, həmin mllətə qalib gəlmək mümkünsüzdür: “Millətin iradəsi ona rəhbərlik edən şəxsin simasında ifaə olunması dövlətin qüdrətini göstərir. Azərbaycan Türkiyə ilə qardaş dövlətdir, hər iki ölkə bir-birinə dəstək verir. Yaşasın, Azərbaycan-Türkiyə qardaşlığı, dostluğu!”.

Əli Həsənov onu da xatırladıb ki, 1994-cü ilin oktyabr və 1995-ci ilin mart ayında Azərbaycan xalqının iradəsini ifadə edən prezident Heydər Əliyevi devirmək üçün təxminən 15 iyul hadisələrinə oxşar hadisələr baş verib: “O zaman da Azərbaycan ordusunun, Daxili Qoşunlarının, polisin tərkibində yuva salmış, öz doğru yolundan sapdırılmış Azərbaycan vətəndaşları dövlətə və dövlətçiliyə silah yönəltdilər. Bəs, niyə qalib gələ bilmədilər? Çünki Heydər Əliyev o qüvvələrin qarşısına xalqın iradəsi ilə çıxdı. Heydər Əliyev çağırış etdi ki, Azərbaycan dövlətini dəstəkləyən vətəndaşlar meydanlara çıxsın. Yüz minlərlə vətəndaş öz sinəsini sipər edərək, bu silahlı, azğınlaşmış quldur dəstələrinin qarşısına çıxıb, onları tərksilah etdi. Bir sözlə, tarixdə millətin iradəsinə qalib gələn qüvvə yoxdur və yəqin ki, bundan sonra da olmayacaq. Xüsusən də bu millətin iradəsi onun dəstəklədiyi liderin simasında ifadə olunursa...”.

Əli Həsənovun sözlərinə görə, iki il əvvəl - 15 iyulda Türkiyədə xalqa silah çəkən yolunu azmış, azğınlaşmış insanlar xalqın iradəsi ilə formalaşmış hakimiyyəti devirməyə çalışırdılar və sonda məğlubiyyətə düçar oldular: “Elə 1994-1995-ci il hadisələri də xalqın iradəsini ayaqlar altına almaq, Heydər Əliyev hakimiyyətini devirmək cəhdi idi. Ulu öndərlərimizin, böyük Atatürk və böyük Heydər Əliyevin təməlini qoyduğu “tək millət, iki dövlət” formulu həmin günlərin sınağından şərəflə çıxdı və öz məğlubedilməzliyini bir daha dünyaya nümayiş etdirdi”.

## Fransanın “Lettre Diplomatique” jurnalının növbəti nömrəsi Azərbaycana həsr olunub




Fransanın “Lettre Diplomatique” jurnalının növbəti nömrəsi Azərbaycana həsr olunub. AZƏRTAC xəbər verir ki, jurnalda Şərq və Qərb arasında körpü rolunu oynayan ölkəmizin müstəqilliyinin 100 illik yubileyinin qeyd edilməsindən, iqtisadi inkişafından, “Ekspo 2025” Ümumdünya Sərgisinə ev sahibliyi etmək üçün namizədliyini irəli sürməsindən, beynəlxalq təşkilatlarla əlaqələrindən, mədəniyyətlər və dinlər arasında dialoq platforması olmasından bəhs edilir.

Azərbaycanın Fransadakı səfiri Rəhman Mustafayev jurnalda dərc olunan müsahibəsində 100 illiyini qeyd etdiyimiz Azərbaycan Xalq Cümhuriyyətinin tarixi, nailiyyətləri, eləcə də 1991-ci ildə müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasının uğurları, iqtisadi inkişafı, Fransa ilə ikitərəfli əlaqələri barədə danışır. O, həmçinin Ermənistanın azərbaycanlılara qarşı apardığı etnik təmizləmə siyasətindən söhbət açır, xalqımızın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və beynəlxalq təşkilatların onun həlli ilə bağlı qəbul etdiyi qətnamə və qərarları diqqətə çatdırır.

Azərbaycanın Beynəlxalq Sərgilər Bürosundakı nümayəndə heyətinin rəhbəri Elçin Əmirbəyov, “Ekspo 2025 Bakı” Əməliyyat katibliyinin icraçı direktoru Pol Foster və əməliyyat katibliyinin üzvü Ülkər Müller jurnalda universal sərgilərdə ölkəmizin uğurlu iştirakı, “Ekspo 2025” Ümumdünya Sərgisinin keçirilməsi üçün namizədliyi, dövlət dəstəyi, seçilmiş mövzunun əhəmiyyəti haqqında ətraflı məlumat verirlər.

Azərbaycanın UNESCO yanında daimi nümayəndəsi səfir Anar Kərimov və UNESCO-nun mədəniyyətlərarası dialoq şöbəsinin müdiri Ann-Belinda Preis bu təşkilatla ölkəmiz arasındakı əlaqələrdən, “Bakı Prosesi”ndən bəhs edirlər. Jurnalda, həmçinin BMT yanında dami nümayəndəliyimizin rəhbəri Yaşar Əliyevin və Avropa Şurası yanında daimi nümayəndəliyimizin rəhbəri Emin Eyyubovun ölkəmizin beynəlxalq təşkilatlarla əlaqələrinə dair məqalələri dərc olunub. Bundan başqa, senator Alən Uperin və Milli Məclisin deputatı Cavanşir Feyziyevin Azərbaycan-Fransa parlamentlərarası əlaqələri ilə bağlı məqalələri də jurnalda yer alıb.

## Bakıda “Media: dini radikalizmlə mübarizə” mövzusunda konfrans keçirilib

Milli Mətbuat Günü münasibətilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Azərbaycan Mətbuat Şurasının birgə təşkilatçılığı ilə iyulun 16-da Bakıda “Media: dini radikalizmlə mübarizə” mövzusunda konfrans keçirilib. AZƏRTAC xəbər verir ki, konfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və Azərbaycan Mətbuat Şurasının, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) rəhbərliyi, Milli Məclisin deputatları, media təmsilçiləri, eləcə də ictimaiyyət nümayəndələri iştirak ediblər.




Konfransda çıxış edən Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı ümummilli lider Heydər Əliyevin kütləvi informasiya vasitələrinin işçilərinə göstərdiyi diqqət və qayğıdan, Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin ölkə mətbuatının daha da inkişafı məqsədilə həyata keçirdiyi tədbirlərdən söz açıb. Mübariz Qurbanlı dini radikal qruplara qarşı ideoloji sahədə mübarizənin gücləndirilməsində, dini xurafata qarşı təbliğatda medianın önəminə də toxunub. Dövlət Komitəsinin sədri bildirib ki, ölkədə ictimai-siyasi sabitliyin qorunmasında hüquq-mühafizə orqanları ilə yanaşı, kütləvi informasiya vasitələrinin də rolu çox önəmlidir. Mediada milli maraqlar məsələsində həmrəyliyi görürük, bu da vacib məsələlərdən biridir. Qeyd edib ki, bu gün kimlərsə məqsədyönlü şəkildə bəzi məsələləri qabardaraq, din pərdəsi adı altında ictimai-siyasi sabitliyi pozmağa cəhd edir. Əlavə edib ki, bu kimi təxribatçı cəhdlər möhkəm təməllər üzərində təşəkkül tapmış dünyəvi və hüquqi dövlətçiliyimizin əsaslarını sarsıda bilməz.

Mübariz Qurbanlı vurğulayıb ki, din həssas mövzu olduğundan bu mövzuda yazan jurnalistlər ətraflı dini biliklərə malik olmalıdırlar. Media bu mövzuları işıqlandıran zaman diqqətli olmalı, məsələyə həssaslıqla yanaşmalıdır.

Milli Məclisin deputatı, Mətbuat Şurasının sədri Əflatun Amaşov Azərbaycan xalqının həyatında mətbuatın çox böyük rol oynadığını deyib. Ə.Amaşov qeyd edib ki, Azərbaycan mətbuatı hər zaman milli və dini dəyərlərə hörmətlə yanaşıb. Azərbaycandan 3 milyona qədər sosial şəbəkə istifadəçisinin olduğunu diqqətə çatdıran Mətbuat Şurasının sədri çıxışında dövlətə qarşı olan bəzi qüvvələrin sosial şəbəkələrdən öz məkrli məqsədlərini yaymaq üçün istifadə etdiyini təəssüflə vurğulayıb. O, kənardan Azərbaycanın daxili siyasətinə müdaxilə etməyin mümkün olmadığını bildirib. Son günlər baş verən hadisələrin İslam dini ilə əlaqəsi olmadığını, ayrı-ayrı qrupların din pərdəsi altında gizlənərək öz niyyətlərinə çatmaq istədiklərini diqqətə çatdıran Ə.Amaşov Azərbaycan mediasının bunu aydın gördüyünü, kütləvi informasiya vasitələrində çalışanlar peşəkarlıq nümayiş etdirərək öz işlərini düzgün şəkildə qurduqlarını deyib.

“Azərbaycan” qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar Sadıqov çıxışında deyib ki, dünyada gedən son proseslər müsəlman dövlətlərinə yaxşı heç nə vəd etmir. Onun sözlərinə görə, bəzi qüvvələr çalışırlar ki, məhz İslamın terror dini olduğunu, terroru ancaq müsəlmanların törətdiklərini sübut etsinlər. B.Sadıqov din adı altında gizlənən ekstremist-radikal qrupların məqam tapan kimi fəaliyyətə başladıqlarını bildirib. “O insanlar ki, respublikamızda sabitliyin pozulmasına çalışırlar, onlar dövlətimizin və xalqımızın düşmənləridirlər. Ancaq hər kəs əmin olsun ki, ölkəmizdə heç vaxt ictimai-siyasi sabitliyin pozulmasına imkan verilməyəcək”, - deyə Milli Məclisin deputatı əlavə edib.

Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Fuad Nurullayev vurğulayıb ki, Azərbaycanda hökm sürən sabitliyə və əmin-amanlığa kölgə salmaq istəyən bəzi qüvvələr həm xaricdə, həm də ölkəmizin daxilində məkrli niyyətlərini həyata keçirməyə ciddi cəhdlə çalışırlar. F.Nurullayev bu cinayət əməllərində İslam dininin adından sui-istifadə olunmasının qətiyyən yolverilməz olduğunu bildirib. Milli Məclisin deputatı Fazil Mustafa çıxışında dövlət-din münasibətlərindən bəhs edərək dinə göstərilən qayğıdan danışıb. Bu sahədə həyata keçirilən islahatların əhəmiyyətinə toxunan F.Mustafa, eyni zamanda, bir sıra təkliflər irəli sürüb.

Bakı şəhəri Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev Gəncədə baş verən hadisələri dinlə bağlamaq cəhdlərini arzuolunmaz hal kimi dəyərləndirib. Bildirib ki, bu, ölkəmizə düşmən olan bəzi qüvvələrin xaricdən siyasi məqsədlərlə yönləndirilən, cəmiyyətdə nifaq salmaq cəhdidir.

Sonra çıxış edən “Səs” qəzetinin baş redaktoru Bəhruz Quliyev deyib ki, dövlətimizə və xalqımıza qarşı yönəlmiş terror və təhdidlərlə mübarizədə mətbuat dövlətin və xalqın yanında olmalıdır. Bildirib ki, dini mövzuya müraciət edən jurnalistlər həssaslıq nümayiş etdirməlidirlər. “APA Holding”in rəhbəri Vüsalə Mahirqızı deyib ki, milli və dini vəhdət sabitliyin zəmanətidir: “Məhz buna görə qarşıdurma yaratmaq istəyənlər bu incə amili nəzərə alırlar, çünki hazırda bizim ən böyük sərvətimiz sabitliyimizdir. Dini radikalizmlə mübarizəyə toxunan V.Mahirqızı burada təhsil və maarifləndirmənin mühüm rol oynadığını dilə gətirib.

“İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə dini məsələlərlə bağlı geniş maarifləndirmə işinin aparılmasının zəruriliyini diqqətə çatdırıb. Qeyd edib ki, istər cəbhə bölgəsində baş verən hadisələrdə, istərsə də bu cür məqamlarda bəzi internet saytlarının, eləcə də müxtəlif sosial şəbəkə istifadəçilərinin fəallaşması müşahidə edilir. Onun sözlərinə görə, düşmən ölkədəki xüsusi qruplar tərəfindən maliyyələşdirilən bu cür saytların ictimai-siyasi sabitliyi pozmağa cəhd etməsi istisna edilmir.

Konfransda, həmçinin dini radikalizmə qarşı mübarizə, milli-mənəvi, o cümlədən dini dəyərlərin, multikultural və tolerant ənənələrin qorunması və təbliği istiqamətində KİV-in üzərinə düşən vəzifələr barədə müzakirələr aparılıb. Sonda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən dini mövzuları işıqlandıran, milli-mənəvi dəyərlərimizin, tolerant və multikultural ənənələrimizin təbliğində fəallıq göstərən bir qrup jurnalist mükafatlandırılıb.

# Türkiyədə 15 iyul hadisələrinin növbəti ildönümü ilə əlaqədar Bakıda anım mərasimi təşkil edilib

***2016-cı il iyulun 15-də Türkiyədə baş vermiş dövlət çevrilişinə cəhdin ikinci ildönümü ilə əlaqədar qardaş ölkənin Azərbaycandakı səfirliyində anım tədbiri təşkil edilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov tədbirdə iştirak edib.***




Əvvəlcə şəhidlərin ruhuna dualar oxunub və TRT kanalının 15 iyul hadisələrinə dair hazırladığı filmin nümayişi olub.

Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral anım mərasimində çıxış edərək deyib ki, iki il əvvəl iyulun 15-də türk milləti kiminsə onun əvəzinə qərar verməsini qəbul etmədiyini bütün dünyaya bəyan etdi. O vurğulayıb



ki, 15 iyul günü milli dastanımızdır. Heç kim türk millətini öz yolundan döndərə bilməz. Hər kəs bilsin ki, bu millət hər zaman dövlətinə, vətəninə sahib çıxacaq.

Səfir vurğulayıb ki, həmin gün plan quranlar İslam dinindən sui-istifadə edilər. Azərbaycanda da İslam dinini bəhanə edərək terror törətməyə çalışan xainlər var. Hər kəs bilməlidir ki, Azərbaycan və Türkiyə bu ünsürləri həmişə əzib yox edəcək gücdədir. Dövlətə və millətə xəyanət edən FETÖ yox ediləcək və həmin gün uzaqda deyil.

Prezidentin köməkçisi Əli Həsənov çıxışında bildirib ki, Türkiyədə 2016-cı il iyulun 15-də baş vermiş hadisələrdə xalqın öz iradəsini ortaya qoyması qürurvericidir. Bu, qəhrəmanlıq salnaməsidir. İki il əvvəl iyulun 15-də Türkiyədə baş verən hadisələr Azərbaycanda da çox həyəcanla izlənildi. Biz Türkiyə hökumətinə dəstəyimizi göstərdik. "Bir millət, iki dövlət" kəlamı həmin günlərin sınağından şərəflə çıxdı. Biz sarsılmaz Türkiyə-Azərbaycan dostluğunu nümayiş etdirdik.

Bir neçə gün əvvəl Gəncədə baş vermiş hadisələrə də toxunan Prezidentin köməkçisi bildirib ki, Gəncə hadisələri dövlətçiliyə əl qaldırmaq istəyən xainlər tərəfindən törədilib. Dinc insanlar arasında olan iki polis zabiti qətlə yetirildi. O zabitlər ölkəmizin tarixinə adlarını qızıl hərflərlə həkk etdilər. Türkiyədəki hadisə ilə Gəncədəki bu hadisə oxşardır. Əli Həsənov xatırladıb ki, 1994-cü ilin oktyabrında və 1995-ci ilin martında Azərbaycan xalqının iradəsini ifadə edən Prezident Heydər Əliyevi devirmək üçün Türkiyədəki 15 iyul hadisələrinə təxminən oxşar hadisələr baş verib. O zaman da Azərbaycan Ordusunun, Daxili Qoşunlarının, polisin tərkibində yuva salmış, öz doğru yolundan sapdırılmış vətəndaşlar dövlətə və dövlətçiliyə silah yönəltdilər. Bəs, niyə qalib gələ bilmədilər? Çünki Heydər Əliyev o qüvvələrin qarşısına xalqın iradəsi ilə çıxdı. Heydər Əliyev çağırış etdi ki, Azərbaycan dövlətini dəstəkləyən vətəndaşlar meydanlara çıxsınlar. Yüz minlərlə vətəndaş öz sinəsini sipər edərək azğınlaşmış silahlı quldur dəstələrinin qarşısına çıxıb onları tərksilah etdi. Bir sözlə, tarixdə millətin iradəsinə qalib gələn qüvvə yoxdur və bundan sonra da olmayacaq. Xüsusən də bu millətin iradəsi onun dəstəklədiyi liderin simasında ifadə olunursa.

Əli Həsənov Türkiyədəki hadisələrin 20 Yanvar hadisələri ilə oxşarlığına da diqqət çəkərək deyib: "Sadəcə, Türkiyədə bu hadisəni törədənlər Türkiyə ilə bağlılığı olanlar idi. Bakıda isə əhalini qanına qəltan edənlər erməni, erməni xislətli yad əsgərlər idi. Hər ikisi milli iradəyə qalib gəlmək istəyirdi. Millətin üzərinə getmək, tanklar, hərbi təyyarələr qaldırmaq olar, amma milli iradəyə qalib gəlmək olmaz". Prezidentin köməkçisi vurğulayıb ki, Azərbaycan və Türkiyə qardaş dövlətlərdir. Hər iki ölkə bir-birinə dəstək verir. Yaşasın Azərbaycan-Türkiyə qardaşlığı, dostluğu!

# Mərkəzi və Şərqi Avropa dövlətləri parlament rəhbərlərinin Zirvə toplantısı keçirilib

Milli Məclisin sədr müavini Valeh Ələsgərov Mərkəzi və Şərqi Avropa dövlətləri parlament rəhbərlərinin 3-cü Zirvə toplantısında və Polşa parlamentarizminin 550 illik yubileyinə həsr olunmuş xüsusi iclasda iştirak etmək üçün iyulun 11-14-də Polşanın paytaxtı Varşavada səfərdə olub.



Parlamentin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səfər çərçivəsində Valeh Ələsgərov Polşa Senatı Marşalının müavini Adam Biyelan ilə görüşüb. Görüşdə Milli Məclisin sədr müavini 2018-ci ilin həm Azərbaycan, həm də Polşa üçün tarixi yubileylərin keçirilməsi ilə əlamətdar olduğunu vurğulayıb. Ölkələrimizin siyasi əməkdaşlığının uğurla davam etdirildiyi, Azərbaycan ilə Polşa arasında ticarət dövriyyəsinin artırılması üçün geniş imkanların mövcud olduğu bildirilib. Valeh Ələsgərov Azərbaycanın transregional əhəmiyyəti və həyata keçirdiyi irimiqyaslı layihələr barədə ətraflı məlumat verib.

Söhbət zamanı ölkə parlamentləri arasında əməkdaşlığın davam etdirilməsinin vacibliyi vurğulanıb. Mərkəzi və Şərqi Avropa dövlətləri parlament rəhbərlərinin 3-cü Zirvə toplantısı çərçivəsində "Parlament əməkdaşlığının gücləndirilməsi: Regionun inkişafı naminə imkan kimi" mövzusunda keçirilən paneldə çıxış edən Valeh Ələsgərov toplantının regionda parlamentlərarası çoxtərəfli əməkdaşlığın inkişaf etdirilməsinə müsbət təsirini vurğulayıb. O, Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli rolu haqqında geniş məlumat verib. Valeh Ələsgərov Azərbaycanın Avropa və Asiya qitələrini birləşdirən əhəmiyyətli nəqliyyat layihələrinə imza atdığını və bu layihələrin əsasında etibarlı əməkdaşlığın dayandığını söyləyib.

Milli Məclisin sədr müavini Azərbaycanın toplantıya qatılan Ermənistandan başqa bütün iştirakçı ölkələrlə uğurlu əməkdaşlıq həyata keçirdiyini deyib, işğalçı Ermənistanın isə regional əməkdaşlıqdan kənar qaldığını qeyd edib.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Valeh Ələsgərov Azərbaycanın ərazi bütövlüyünün müzakirə predmeti olmadığını vurğulayıb və iclas iştirakçılarını ölkəmizin öz ərazi bütövlüyünü tezliklə təmin edəcəyinə əmin edib. Səfər çərçivəsində Valeh Ələsgərov Polşa parlamentarizminin 550 illik yubileyi və ölkənin müstəqilliyinin bərpa edilməsinin 100 illiyinə həsr olunmuş xüsusi iclasa da qatılıb. İclasda Polşa Prezidenti Andjey Duda çıxış edib.

# Brenda Şaffer: "TANAP layihəsi təkcə Azərbaycan üçün deyil, dünya üçün böyük nailiyyətdir"



TANAP layihəsi təkcə Azərbaycan üçün deyil, dünya üçün böyük nailiyyətdir. Bu sözləri AZƏRTAC-a müsahibəsində Amerika Elmi Siyasi Assosiasiyasının Xarici Siyasət Bölməsinin sabiq prezidenti, "Enerji Siyasəti" kitabının müəllifi, professor Brenda Şaffer deyib.

"Mən 1997-ci ildə ilk dəfə Azərbaycana gələndə bura müstəqilliyini yeni əldə etmiş, tənəzzül dövrü yaşayan bir ölkə idi. 27 il burada yaşayandan sonra və hazırda Azərbaycanı təkcə regiondakı ölkələrə deyil, həmçinin Avropaya neft və qaz ixrac edən, enerji sahəsində güclü ölkə kimi görmək inanılmazdır. Təkcə neft qaz sahəsində deyil, bu illər ərzində Azərbaycan doğurdan çox böyük inkişaf yolu keçib. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası" nəticəsində son illər Azərbaycanda sosial infrastruktura yatırılan investisiyalar, ölkə rəhbərliyinin ölkənin insan kapitalının inkişafına ayırdığı diqqətin nəticələri göz qabağındadır", - deyə o bildirib. B.Şaffer qeyd edib ki, son illər ərzində Azərbaycanda görülmüş işlər və onların uğurlu nəticələri danılmazdır. Mənim fikrimcə, 2020-ci ilədək biz bütün perspektivləri tədqiq etməliyik.

# İranlı nazir: "Azərbaycana səfərim zamanı səhiyyə sahəsində bir sıra razılıqlar əldə olundu"



***İran ilə Azərbaycan arasındakı qarşılıqlı etimad və müxtəlif sahələr üzrə əlaqələrin inkişafı hər iki xalqın maraqlarına cavab verir. Bu sözləri AZƏRTAC-a müsahibəsində İranın səhiyyə, müalicə və tibbi təhsil naziri Həsən Haşimi Qazizadə Azərbaycana səfərinin yekunları haqqında danışarkən deyib. O bildirib ki, Azərbaycanda keçirdiyi görüşlər çox səmərəli olub. Səhiyyə sahəsində əməkdaşlıq əlaqələrinin inkişafı üçün böyük imkanlar var. Azərbaycanın səhiyyə naziri ilə keçirilən görüşdə qərara alındı ki, Pirallahı qəsəbəsində birgə əczaçılıq zavodunun inşası sürətləndirilsin.***

Nazir deyib ki, tibbi xidmətlərlə bağlı da fikir mübadiləsi aparılıb və Azərbaycanda xəstəxana tikilməsi məsələsi müzakirə edilib. Eyni zamanda, iranlı həkimlərin Azərbaycanın müxtəlif xəstəxanalarında əhaliyə xidmət göstərməsi məsələsinə də toxunulub. Bununla yanaşı, iranlı və Azərbaycanlı həkimlərin birgə konfranslar təşkil edib təcrübə mübadiləsi aparmaları haqqında razılıq əldə olunub. İranlı nazir Bakıda çox yüksək səviyyəli və bütün avadanlıqlarla təchiz edilmiş xəstəxanaların olduğunu bildirərək Azərbaycanda səhiyyənin inkişaf etdiyini söyləyib. Nazir azərbaycanlı həmkarını İrana dəvət etdiyini diqqətə çatdırıb.

# Xalqın xoşbəxt gələcəyi



***O** xalq xoşbəxtdir ki, onun ən ağır, ən dəhşətli anlarında, xilaskara ehtiyac duyanda, meydana onun öz içərisindən dahi bir şəxsiyyət çıxır, xalqını bəlalardan xilas edir, onu burulğandan çıxarır və yaşadır. XX əsrin ən böyük siyasətçisi, dünya azərbaycanlılarının lideri, xalqımızın bəşəriyyətə bəxş etdiyi ən nadir siması Ulu Öndər Heydər Əliyev də belə şəxsiyyətlərdəndir. Onun Azərbaycan rəhbərliyinə gəldiyi otuz il respublikamızın tarixində çətin və inqilabi dəyişikliklər dövrü kimi əbədi iz qoyub. Ölkəmiz əsrin əvvəllərində neft ilə, əsrin ortalarından xeyli keçdikdən sonra isə, böyük siyasi və dövlət xadimi Ulu Öndən Heydər Əliyevlə şöhrət tapıb. Xalqımızın görkəmli xadiminin otuz illik fəaliyyəti dövründə gördüyü işlərin mislibərabəri yoxdur. Xalqın mentalitetinə yaxşı bələd olan, insanlarla dil tapmağı bacaran, eyni zamanda qəti və sərt mövqeyi ilə fərqlənən Ulu Öndər Heydər Əliyev üçün Azərbaycanı irəliləyiş yoluna çıxarmaqdan ötrü çox vaxt lazım gəlmədi. Dahi Öndərin səriştə və prinsipiallıqla həyata keçirdiyi sosial iqtisadi və mədəni-siyasət tezliklə bəhrəsini verməyə başladı.*

Ötən əsrin 70-ci illərin əvvəllərindən başlayaraq respublikada müsbət dəyişikliklərin mehini hamı hiss edirdi. Əvvəlki rəhbərlərin dövründə prespektivdə heç nə görməyən insanlarda, sözün əsl mənasında, canlanma yaranmışdı. Respublika ədalətli rəhbərin haqsızlığa, rüşvətxorluğa, korrupsiyaya qarşı mübarizə kursunu, iqtisadiyyatın dirçəlməsi, insanların rifah halının yaxşılaşdırılması üçün səylərin, elm və təhsilin, mədəniyyətin inkişafına göstərdiyi qayğını alqışlayır və ona hər cür kömək etməyə hazır olduqlarını bildirirlər. Azərbaycan yeni bir intibah dövrünə qədəm qoymuşdu.

Özünəməxsus iş üslubu, ünsiyyət qabiliyyəti sayəsində, ilk növbədə, insanların fəal surətdə ictimai-siyasi proseslərə, quruculuq işlərinə fəal qoşulmasına nail olan Ulu Öndər Heydər Əliyev Azərbaycanın problemlərini İttifaq hökuməti qarşısında qaldırır və onların mərhələ-mərhələ həllinə nail olurdu. Respublikanın paytaxtı Bakı nəhəng tikinti meydançasını xatırladır. Paytaxtımızda yeni mikrorayonlar, yaşayış massivləri tikilir, sosial-mədəni təyinatlı obyektlər ucalır, yaşıllıqlar, park və xiyabanlar salınır. Vaxtilə boz qayalardan başqa gözə heç nə dəyməyən Əhmədli və Günəşli yaylalarında, sözün əsl mənasında, şəhər içində şəhər yaradılmasını, metropoliten stansiyalarının sürətlə inkişafı, Xəzərin sahilində "Dostluq" bağının salınması və bir neçə belə faktı sadalamaq olar. O dövrdə istifadəyə verilən Kondisionerlər Zavodunun, "Şelflayihətikinti" Birliyinin Bakıda və respublikanın rayonlarında tikilən başqa sənaye obyektlərinin barəsində daha dərin təsəvvür yaranır. Kənd təsərrüfatındakı nailiyyətlərin də miqyası çox böyük idi. Azərbaycan meyvə-tərəvəz yetişdirilməsində öncül mövqe tuturdu. Respublika üzümçülüyün və pambıqçılığın inkişafında misilsiz nailiyyətlər qazanmışdır. Bununla paralel rayonlarda mükəmməl emal sənayesi yaradılırdı. Ötən əsrin 70-80-ci illərdə Azərbaycanın inkişafından söhbət açarkən, Ulu Öndər Heydər Əliyevin həmişə diqqət mərkəzində saxladığı elm və təhsil, mədəniyyət sahəsindəki uğurlarını da xüsusi qeyd tmək lazımdır. O vaxtlar demək olar ki, hər gün dövlət əhəmiyyətli bir mədəni tədbir və yubiley keçirilirdi. Ya da Ulu Öndər Heydər Əliyev uzaqgörən bir siyasətçi kimi, Azərbaycanın oğul və qızlarının keçmiş SSRİ-nin qabaqcıl ali məktəblərində təhsil almağa yönəldilmələrini xatırlayaq. İndi bu kadrlar müstəqil Azərbaycanın inkişafı üçün çox iş görürlər.

Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrdə mükəmməl və işlək idarəetməyə stimul yaratmışdı. 1986-cı ildə SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsinə irəli çəkilməsi ilə əlaqədar Moskvaya getdikdən sonra respublikamız sanki bir neçə il özbaşına idarə olundu. Xalqımızın müdrik oğlu bədxahların əli ilə vəzifəsindən uzaqlaşdırıldıqdan sonra isə Azərbaycan, sözün əsl mənasında, başsız qaldı. Öz doğma xalqını dərin məhəbbətlə sevən Ulu Öndər Heydər Əliyev yüksək vəzifəli şəxs idi, məkrli qüvvələr öz çirkin niyyətlərini büruzə verməyə cəsarət etmirdilər. İndi isə açıq hücuma keçmək üçün şərait yaranmışdı. Azərbaycanın səriştəsiz rəhbərliyinin biganəliyi və acizliyi də buna şərait yaradırdı. Müstəqilliyimizin ilk illərində ölkədə tez-tez baş verən hakimiyyət dəyişiklikləri Azərbaycana böyük bəlalar gətirdi. Qarabağ münaqişəsinin qarşısı vaxtında alınmadı, ermənilərin Dağlıq Qarabağda etnik təmizləmə aparmalarına, torpaqlarımızın bir qismini zəbt etmələrinə imkan verildi. 1993-cü ildə AXC-Müsavat cütlüyünün bir illik hakimiyyəti ölkəmizi daha böyük bir faciə ilə - vətəndaş müharibəsi ilə üz-üzə qoydu. Bir fəlakət Azərbaycanın parçalanması, müstəqil dövlət kimi məhv olması, cəbhədə daha böyük uğursuzluqlara məruz qalması demək idi.

Belə ağır məqamda xalq ayağa qalxdı və son sözünü dedi. Xalq sınanmış ləyaqətli oğlunu - Ulu Öndər Heydər Əliyevi respublikanın ali rəhbərliyinə çağırdı. Çünki ölkəni, xalqı belə qarşıdurmadan yalnız Ulu Öndər Heydər Əliyevin qüdrətli zəkası, uzaqgörənliyi çıxara bilərdi və çıxardı da.

Xalqın təkidli tələbi ilə hakimiyyətə gələn Ulu Öndər Heydər Əliyev dünyəvi dövlətçilik qurmaq yolu tutdu. Prezident seçilərkən "Mən həyatımın qalan hissəsini xalqıma həsr edəcəyəm" deyən Ulu Öndər Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyini möhkəmlətməyi, əhalinin sosial vəziyyətini yaxşılaşdırmağı, xalqın milli-mənəvi dəyərlərinin keşiyində durmağı əsas məqsəd sayırdı. Bütün bunlara nail olmaqdan ötrü dövlət başçısı 1993-cü ilin yayından bu yana gecə-gündüz çalışır, yenə gələcəyə yönələn siyasət yürüdürdü. Biz bu böyük siyasətin bəhrəsini gördük və görürük. Ölkədə hamının yüksək qiymətləndirdiyi sabitlik var, neft müqavilələri bağlanıb, ölkəyə investisiya axını başlayıb, infrastruktur inkişaf edir, cəbhədə qan tökülmür, səylər Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanmasına yönəldilib.

Ulu Öndərimiz Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunmasına, sərhədlərin toxunulmazlığının təmin edilməsinə, ölkəmizdə demokratik dəyərlərin və prinsiplərin bərqərar olunmasına, bazar iqtisadiyyatı sisteminin dayanmadan inkişafına və sosial tərəqqiyə dair, ictimai inkişafın əsas müddəalarını müəyyənləşdirmiş və Azərbaycanın inkişafı, tərəqqisi üçün sistemli fəaliyyət göstərməyi zəruri hesab etmişdir.

Ulu Öndərimiz Heydər Əliyev xalqının hərtərəfli inkişafına çalışırdı. İnsanların elmi səviyyəsinin yüksəlməsini daim ön plana çəkirdi. O, yaxşı başa düşürdü ki, savadlı bir insan yalnız yaxşı illər barədə düşünür, qurub-yaratmağa can atır.

Bu gün Azərbaycan xalqı sevinir ki, Onun layiqli davamçısı Prezidentimiz İlham Əliyev Cənabları demokratik yolla və böyük səs çoxluğu ilə 11 aprel 2018-ci il tarixində ölkəyə yenidən rəhbər seçildi.

Prezident İlham Əliyev Azərbaycanın, xalqımızın gələcəyinin daha da inkişaf etməsi üçün əlindən gələni edir. Xalq öz Prezidentinə böyük ümidlər bəsləyir. Allah Özünün və ailəsinin dayağı olsun.

***Mürsəlova Ofelya,***
***ADPU-nun pedaqogika kafedrasının baş müəllimi***

# Mətbuat Şurasının İdarə Heyətinin genişləndirilmiş iclası keçirilib

## *İclasda Gəncə hadisələrinin, Mingəçevirdəki qəzanın mediada və sosial şəbəkələrdəki təqdimat formaları müzakirə olunub*

***İyulun 16-da Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin genişləndirilmiş iclası keçirilib. AZƏRTAC xəbər verir ki, Mingəçevirdə baş vermiş enerji qəzasının və Gəncə terrorunun mediada işıqlandırılması vəziyyətinə həsr olunmuş toplantıda Şuranın İdarə Heyətinin üzvləri, ölkənin ictimai rəyə təsir göstərən kütləvi informasiya vasitələrinin, o cümlədən internet informasiya resurslarının rəhbərləri iştirak ediblər.***



İclası açan Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov bildirib ki, Mingəçevirdəki qəza və Gəncə Şəhər İcra Hakimiyyətinin başçısına qarşı terror ilə başlamış iğtişaş ölkənin gündəmində olan başlıca mövzulardandır. Azərbaycan Mətbuat Şurasının müşahidələri göstərir ki, media ümumən hər iki hadisəyə obyektiv prizmadan yanaşdı və ictimai rəyi düzgün istiqamətə yönləndirməklə peşəkarlıq nümayiş etdirdi. Lakin məsələyə fərqli aspektdən yanaşmış internet informasiya resursları və sosial şəbəkə profilləri də oldu. Onlar özlərinə sərfəli fikir və düşüncələri, bir növ, fakt kimi təqdim edərək cəmiyyətdə çaşqınlıq yaratmaq yolu tutdular. Eyni zamanda, biz aşkar təfriqəçilik meyillərinin, insanları hakimiyyətə qarşı qaldırmaq cəhdlərinin, din pərdəsi altında iğtişaşlar yaradaraq Azərbaycanın nüfuzunu ləkələmək istəklərinin şahidi olduq. Bütün bunlara Azərbaycan ictimaiyyəti olduqca sərt reaksiya verdi. Bu reaksiyanın formalaşmasında media ictimaiyyətinin rolu böyükdür. Azərbaycanda qərarlaşmış asayişi, sabitlik mühitini pozmaq istəyən antimilli qüvvələrə qarşı ictimai səfərbərliyin təmin edilməsi son dərəcə vacibdir. Ölkəmizin adı ilə bağlı olan və dünyanın enerji xəritəsini dəyişən nəhəng layihələr, Milli Ordumuzun 100 illiyinə həsr olunmuş möhtəşəm hərbi parad xaricdəki bəzi anti-Azərbaycan qüvvələri hərəkətə keçirib. Azərbaycan gücləndikcə ona qarşı təhdidlər, o cümlədən informasiya müstəvisindəki təxribatlar artır. Təəssüf ki, bu prosesdə xaricdə yaşayan azərbaycanlılar da alətə çevrilirlər. Zaman-zaman biz bu kimi halların şahidi olmuşuq. Hər hansı hadisənin timsalında ölkə rəhbərliyi, ayrı-ayrı məmurlar təhqir olunur, ünvanlarına aşağılayıcı ifadələr səslənir. Məqsəd ölkədə xaos, etimadsızlıq, inamsızlıq mühiti yaratmaqla mövcud konstitusion quruluşu devirməkdir. Media ictimaiyyəti olaraq biz bu kimi təhlükəli təmayüllərə münasibətdə ayıq olmalı, qətiyyətli mövqe nümayiş etdirməliyik.

Mətbuat Şurasının İdarə Heyətinin üzvü, "Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar Sadıqov bildirib ki, ölkəmizdəki sabitliyi pozmağa cəhd edən qüvvələr ən müxtəlif vasitələrdən istifadə edirlər. İnformasiya texnologiyalarının sürətli inkişafı nəticəsində onlar daha da fəallaşıblar. Mövcud xüsusda sosial şəbəkələrdə yayılmış fikirlərə toxunan deputat vurğulayıb ki, bu məkandakı paylaşımların məlumat kimi cəmiyyətə çatdırılması praktikasına ehtiyatla yanaşılmalıdır. Ciddi media vasitələri ehtiyatı əldən vermirlər. Ümumilikdə, ölkə mediası son hadisələrin doğurduğu sınaqdan üzüağ çıxmağı bacardı.

Azərbaycana müxtəlif ölkələrdən dini təsirlərin həyata keçirildiyini və bu istiqamətdə çoxsaylı informasiya resurslarının fəaliyyət göstərdiyini vurğulayan MŞ İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Aqil Abbas bildirib ki, cəmiyyətin informasiya təminatı prosesində jurnalistlərlə yanaşı, müvafiq dövlət qurumları da iştirak edirlər. İkincilərin iş operativliyinin gücləndirilməsinə ehtiyac duyulur.

Şuranın İdarə Heyətinin üzvü, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu bildirib ki, Gəncə terroru və Mingəçevirdə baş vermiş qəza ilə bağlı rəsmi informasiya verilməyənədək yayılmış yanlış məlumat axınına qoşulanlar oldu. Bu cür məqamlara diqqət yetirilməli və belə halların gələcəkdə baş verməməsi üçün sistemli iş aparılmalıdır.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru, MŞ İdarə Heyətinin üzvü Vüqar Səfərli diqqəti ekstremal vəziyyətlərdə əlaqədar dövlət qurumlarının ilk mənbə rolunda çıxış etməsinin vacibliyinə yönəldib. Bu baxımdan məsuliyyət hissinin artırılmasının zəruriliyini əsaslandırıb.

Gəncə hadisələri və Mingəçevirdə baş vermiş qəza zamanı medianın və dövlət qurumlarının ümumən operativ fəaliyyət göstərdiklərini önə çəkən MŞ İdarə Heyətinin üzvü, "APA Holdinq"in rəhbəri Vüsalə Mahirqızı çıxışında dövlət qurumları ilə kütləvi informasiya vasitələrinin əməkdaşlığının gücləndirilməsi məsələlərinə toxunub. O bildirib ki, müvafiq dövlət qurumlarının təmsilçiləri ilə media rəhbərləri arasında qeyri-rəsmi görüşlərin təşkilinə ehtiyac var. Bu yolla ikincilər hər hansı hadisənin gerçək motivləri ilə əlaqədar məlumatlandırıla bilərlər. Belə praktika ona görə lazımdır ki, media yalnız informasiya verməklə kifayətlənməsin, konkret hadisə və prosesin təhlili imkanını qazansın, cəmiyyət düzgün yönləndirilsin.

"Strateq.az" saytının rəhbəri Elxan Şükürlü çıxışında Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevə qarşı suiqəsdin baş verməsindən sonrakı bir neçə saatadək məsələ ilə əlaqədar rəsmi informasiya boşluğunun yarandığını deyib. O, hadisə ətrafındakı yanlış fikirlərin dövriyyəyə məhz bu zaman kəsiyində daxil olduğunu xatırladıb. Belə halların yaşanmaması üçün informasiya təminatındakı bütün tərəflərin daha diqqətli olmasının mühüm önəm daşıdığını bildirib.

Şuranın İdarə Heyətinin üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə vurğulayıb ki, istər Gəncə hadisələri, istərsə də Mingəçevirdəki qəza ilə bağlı yanlış fikirləri tirajlayan saytların bir çoxu xaricdən idarə olunduğundan onlara qarşı mübarizədə diplomatik metod və vasitələrdən də geniş istifadə olunmalıdır. Zəruri hallarda prosesə xaricdəki nümayəndəliklər də cəlb edilməlidir.

MŞ İdarə Heyətinin üzvü, "Teleqraf Holdinq"in rəhbəri Aynur Camalqızı media orqanları ilə dövlət qurumlarının əməkdaşlığının daha da gücləndirilməsinin zəruriliyinə diqqət yetirərək vurğulayıb ki, vacib hadisə və proseslər zamanı informasiya boşluğu yaranırsa, ayrı-ayrı sosial şəbəkə profillərinin fəaliyyəti güclənir və cəmiyyət yanlış istiqamətə yönləndirilir.

Şuranın İdarə Heyətinin üzvü, "Xalq cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəyli isə təklif edib ki, dövlət qurumları hər hansı hadisə ilə əlaqədar dəqiqləşdirmələr apardıqları müddətdə yaranmış informasiya boşluğunun qarşısının alınması üçün KİV-lərlə fəal təmaslara malik hazırlıqlı ekspert qrupu fəaliyyət göstərməlidir. Bu yolla cəmiyyətin yanlış səmtə yönləndirilməsinin qarşısı alına bilər.

MŞ İdarə Heyətinin üzvü Azər Həsrət fövqəladə hallar zamanı operativ qərargahın yaradılmasının və bu işə media orqanlarının da cəlb edilməsinin mühüm əhəmiyyət daşıdığını əsaslandırıb.

Media orqanlarının son hadisələr zamanı ümumən kifayət qədər peşəkar mövqe ortaya qoyduqlarını vurğulayan MŞ sədrinin müavini, Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli diqqəti "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanundan irəli gələn tələblərə çəkib və bildirib ki, ölkə qanunvericiliyində dövlət əleyhinə çağırışlar edən elektron media vasitələrinin fəaliyyətinin məhdudlaşdırılması ilə bağlı konkret müddəalara istinad edilməsi də mütləqdir.

Şuranın İdarə Heyətinin üzvü, "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu təxribat hallarına qarşı media müstəvisindəki mübarizənin vacibliyini əsaslandırıb.

Mətbuat Şurasının İdarə Heyətinin üzvü, "Cümhuriyyət" qəzetinin baş redaktoru Rafail Becanov bildirib ki, ekstremal vəziyyətlər zamanı cəmiyyətin yanlış yönləndirilməsinin qarşısının alınması üçün medianın hadisələrin episentrində olması mütləqdir və bu istiqamətdə zəruri addımlar atılmalıdır.

Çıxış edənlərdən "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev, "Palitra" qəzetinin baş redaktoru Namiq Əliyev, "Olaylar" İnformasiya Agentliyinin və "Olaylar" qəzetinin rəhbəri Yunus Oğuz, "Yenicaq.az" saytının baş redaktoru Aqil Ələsgər, "Paralel" qəzetinin baş redaktoru Tapdıq Abbas və başqaları cəmiyyətin informasiya təminatında dövlət qurumları ilə media orqanlarının əməkdaşlığının gücləndirilməsinin vacibliyini önə çəkərək mövcud istiqamətdə yeni baxışların tətbiq olunmasına ehtiyacın duyulduğunu vurğulayıblar.





# "Prezidentin 100 günü"

***Dünən Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatı tərəfindən "Prezidentin 100 günü" adlı tədbir keçirildi. Müdafiə Nazirliyinin H.Aslanov adına Mərkəzi Zabitlər Evində təşkil olunan tədbirdə, ilk olaraq, Azərbaycan Prezidenti İlham Əliyevin İnauqurasiya - Andiçmə mərasiminə həsr olunmuş video-çarx nümayiş olundu.***

Tədbiri giriş sözü ilə açan YAP Nəsimi rayon təşkilatının sədri, millət vəkili Məlahət İbrahimqızı bildirdi ki, bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyevin 11 aprel 2018-ci il tarixində keçirilən Prezident seçkilərində möhtəşəm qələbəsinin 100 günü tamam olur: "100 gün ərizində ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə böyük nailiyyətlər əldə olunmuşdur. Prezident İlham Əliyevin titanik fəaliyyəti ilə ölkəmiz hərtərəfli inkişafında mühüm uğurlar qazanıb. Ölkəmizdə bütün sahələrdə, xüsusilə də dövlət idarəçiliyində mühüm islahatlar həyata keçirilib. Təsadüfi deyil ki, Prezidentin fəaliyyətinin 100 günü Ulu Öndər Heydər Əliyevin Azərbaycanda ilk dəfə hakimiyyətə gəlişinin 49-cu ildönümü ilə bir vaxtda qeyd edilir. Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin bütün sahələrində, xüsusilə də dövlət idarəçiliyində sürətlə həyata keçirilən islahatlar - hərbi, inşaat, energetika, sosial-iqtisadi inkişafda misilsiz işlər görülmüşdür. Tədbirdə Yeni Azərbaycan Partiyasının Siyasi Şurasının üzvü və YAP Nəsimi rayon təşkilatının sədr müavini, Nəsimi rayon icra hakimiyyətinin başçısı Asif Əsgərov çıxış edərək, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın uğurlu inkişafının təmin edildiyini, təhlükəsizliyin yüksək səviyyədə qorunub-saxlandığını və ictimai-siyasi sabitliyin möhkəmləndiyini diqqətə çatdırdı: "Ölkə başçısının rəhbərliyi ilə son 15 il ərzində Azərbaycanda bütün sahələrdə yüksək nailiyyətlər qazanılıb, bölgələrdə sosial-iqtisadi inkişafla bağlı infrastruktur layihələri və köklü iqtisadi islahatlar həyata keçirilib".

Tədbirdə çıxış edən Müdafiə Nazirliyi mənəvi-psixoloji hazırlıq və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi, general-mayor Rasim Əliyev, YAP Nəsimi rayon təşkilatının idarə heyətin üzvü, təhsil nazirinin müavini Məhəbbət Vəliyeva, YAP Nəsimi rayon təşkilatının idarə heyətin üzvü, Azərbaycan Neft və Sənaye Universitetinin rektoru Mustafa Babanlı və digərləri, dövlət başçısının uğurlu fəaliyyət modelinin bütün dünyanın qabaqcıl ölkələri tərəfindən qəbul olunduğunu, ölkəmizdə həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirləri diqqətə çəkərək, əldə olunan uğurları vurğuladılar. Qeyd olundu ki, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qəbul olunmuş dövlət proqramları, elm, təhsil və mədəniyyət sahəsinə qayğının artırılması, bu və ya digər sahələrdə mühüm qərarların qəbulu nailiyyətlərimizin göstəricisidir. Tədbirdə Ulu Öndər Heydər Əliyevə, Milli Ordunun yaradılmasının 100 illiyi münasibəti ilə keçirilən hərbi parada, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə, TANAP-ın açılışına və s. həsr olunmuş video-çarxlar nümayiş olundu.

Sonda Azərbaycan Prezidenti Cənab İlham Əliyevin fəaliyyətinin ilk 100 gününə həsr edilmiş "Apar zəfərə, Ali Baş Komandan" mahnısı Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin Hərbi Orkestrinin solisti Cəlal Kərimovun ifasında (ilk dəfə olaraq) səsləndi.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Mediaya diqqət və qayğı Azərbaycanda bu sahədə aparılan dövlət siyasətinin mühüm göstəricisidir

*Azərbaycan Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşovun yap.org.az-a müsahibəsi*



***- Əflatun müəllim, Azərbaycan milli mətbuatı iyulun 22-də növbəti ildönümünü qeyd edir. İstərdik ki, mətbuatımızın keçdiyi yola ümumi nəzər salaq. 143 yaşın üstünlükləri nələrdən ibarət olub?***

- Azərbaycanda milli mətbuat milli dövlətin mövcud olmadığı bir zamanda yarandı. Düşünürəm ki, bu faktın özü yetərincə böyük üstünlükdür. Özü də nəinki 143 ilin, daha böyük rəqəmli əlamətdar tarixlərin, bir növ, anonsunu verən üstünlükdür. Həsən bəy Zərdabi 143 il öncə eyni zamanda 43 il sonra yaşanacaq böyük prosesin anonsunu vermişdi. Milli ruhlu "Əkinçi" əslində milli dövlətçiliyə aparan yolun qaranquşu rolunu oynamışdı. Təsadüfi deyil ki, ondan sonra yaranan mətbuat orqanları Həsən bəyin məişət müstəvisində gətirdiyi yenilikləri ictimai-siyasi motivlərlə çulğalaşdıran yaradıcılıq yolu tutdular. Özlərini "Əkinçi"nin, Zərdabinin ardıcılları kimi təqdim edərək siyasi platforma müəyyənləşdirməyə başladılar. 1918-ci il müstəqilliyinin ideya xətti özünü XIX əsrin sonu - XX əsrin əvvəllərində işıq üzü görmüş nəşrlərin səhifələrində tapdı. Burada mətbuatın üstünlüyü ondan ibarət oldu ki, o, qısa zaman kəsiyində, yəni "Əkinçi"dən sonrakı 43 il ərzində iki missiya yerinə yetirdi. Birincisi, ümumən cəmiyyətdəki geriliyi aradan qaldırdı, cəhalət meyillərinə qarşı cəbhə açdı. İkincisi isə milli şüur və milli özünüdərki təbliğ etdi. Hər iki missiyanı vacib sayıram. Amma nəzərə alaq ki, birincidən ikinciyə keçmək, milli özünüdərk məsələlərini gündəmə gətirərək uğur əldə heç də asan deyildi.

Uğur nədə idi - bunun üzərində xüsusi dayanmaq istərdim. Birinci Dünya Müharibəsinin başa çatması ilə çar Rusiyası da öz ömrünü başa vurmaqda idi. Dünyada, eləcə də Rusiyada baş verən proseslər tamam yeni mənzərə formalaşdırırdı. Düşünmək olardı ki, üfüqdə Azərbaycanın müstəqillik günəşinin doğması labüddür. Amma zənnimcə, məsələ sadə deyildi və bu, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından sonrakı çətinliklər və məhrumiyyətlərdə də nəzərə çarpdı. Ancaq hələ buna qədər dövləti qurmaq ideyasının çətinliyini vurğulamaq istərdim. Hesab edirəm ki, mətbuat öz missiyası ilə əslində bu ideyanın xəmirini yoğurmuş oldu. Bu, o dövrün görkəmli ziyalılarının, ictimai xadimlərinin öz xalqı qarşısındakı tarixdən heç zaman silinməyəcək xidmətlərinin, təsvir etmək üçün söz tapa bilməyəcəyimiz misilsiz fədakarlıqlarının nəticəsi idi. Mətbuatı cəmiyyətin avanqardına çevirənlər məhz onlar oldular. Onların mətbuat səhifələrinə daşıdıqları hər söz, fikir dövlət idarəçiliyinin fəlsəfi traktatına çevrildi.

Azərbaycan Xalq Cümhuriyyəti illərində milli mətbuat. Hesab edirəm ki, bu, ayrıca elmi, həm də ictimai-siyasi məzmun daşıyan geniş mövzudur. Sahənin tədqiqatçıları var. Onların yaradıcılıq nümunələri zaman-zaman işıq üzü görməkdədir. Mən sadəcə onu deyim ki, Cümhuriyyət dövründə mətbuat bir növ, ideyaların reallaşdırılması meydanına çevrildi. Mətbuat insanları yeni günə, qurub-yaratmağa, vətənpərvərliyə, mübarizliyə, prinsipiallığa, tərəqqiyə səslədi.

Deməkolmaz ki, sovet dövründə Azərbaycan mətbuatı özünün gerilik dövrünü yaşayıb. Doğrudur, ciddi qadağalar var idi. Ümumən mətbuat müasir dövrdəki funsiya və vəzifələrindən tam kənar fəaliyyətdəydi. O, sovet quruculuğu yoluna köklənmişdi. Bununla belə mahiyyətindəki, dəst-xəttindəki, ifadə tərzindəki özünəməxsusluq saxlanılırdı. Ümumən sovet hakimiyyəti dövrünün ayr-ayrı mərhələlərinə nəzər salsaq və müqayisələr aparsaq yekun nəticəyə gəlsək, görərik ki, Azərbaycanda 70 illik zaman kəsiyində tənqidi mətbuat yaşayıb. Nəinki yaşayıb, habelə yeni baxışların formalaşması prosesinə də ciddi təkan verib. Təsadüfi deyil ki, mətbuat 1918-ci il müstəqilliyinə aparan yolda hansı missiyanı oynamışdısa, 1991-ci il müstəqilliyinə gedən yolda da eyni missiyanı təkrarlamış oldu. Zənnimcə, onun daha bir üstünlüyü, daha doğrusu cəmiyyətə qazandırdığı üstünlük, həm də bu cəhətlə xarakterizə oluna bilər.

Bəli, ötən 143 il ümumilikdə bizə icmadan cəmiyyət, əhalidən xalq, birlikdən dövlət olmağı qazandırdı. Tam qətiyyətlə söyləyə bilərik ki, bu qazancda mətbuat son dərəcə böyük pay sahibi, hərəkətverici qüvvədir. Ötən 143 ildə mətbuat özü də üstünlüklərə yiyələndi.

***- Sizcə, müasir Azərbaycan mətbuatı özünün ənənələrinə sadiq şəkildə fəaliyyət göstərə bilirmi? Bu yöndə nə kimi məsələlər mövcuddur?***

- Müasir dövr Azərbaycan mətbuatı inkişafa, yeniliyə can atan monolit komandadır. Ötən 143 ildə o, bir çox keyfiyyət dəyişikliklərinə imza atıb. Ancaq dəyişməyən bir məqamı vurğulamaq istərdim. Bu, 143 il öncənin "Əkinçi" ənənələrinə sadiqlik xəttidir. Hesab edirəm ki, mətbuatımızın, indiki dillə desək, mediamızın yaradıcılıq baxımından nə qədər problem və çatışmazlıqları olsa da, o, ümumən Həsən bəy Zərdabi ənənələrinə sadiqdir.

Əlbəttə, qeyd etdiyim kimi, problemlər də qalmaqdadır və bu baxımdan bir sıra məqamlar üzərində dayanır, təhlillər aparırıq. Bir cəhətə xüsusi diqqət yetirmək istərdim. Bilirsiniz ki, Həsən bəy Zərdabi "Əkinçi"ni min bir zəhmət hesabına ərsəyə gətirmişdi. Eləcə də "Əkinçi"nin ardıcılları olan "Ziya", "Ziyayi Qafqaziyyə", "Kəşkül", "Şərqi-rus", "Kaspi", "Molla Nəsrəddin" və digər nəşrlər rəvan yol getməmişdilər. Baxırıq ki, hər birinin yaranması və ictimai rəydə qəbul edilməsi əsasən bir və bir neçə ziyalının fədakar əməyinin nəticəsidir. Bu cəfakeş ziyalılar uca Tanrının Azərbaycana bəxş etdiyi sərvətlərdir. Onlar xalqın yükünü çiyinlərinə götürməkdən yorulmayıblar, son nəfəslərinədək çalışıblar, əqidələrindən, prinsiplərindən, ideyalarından dönməyiblər. Ona görə yada düşən məhz onlardır. Hesab edirəm ki, üzərindən bir 143 il keçdikdən sonra bu gün baş verənlər də belə desək, ələnəcək. Heç şübhəsiz ki, o zaman peşə dəyərlərinə sadiq kimlərsə fərqləndiriləcək, nümunə göstəriləcək. Bəlkə sayları çox az olacaq, amma bu adamlar olacaq və Azərbaycan mediasına münasibətdə bitkin baxış məhz onların əməyi müstəvisində qiymətləndiriləcək. Mən Zərdabi ənənələrinə sadiqlik deyilən zaman, məhz peşəsinə sözün əsl mənasında dəyər verən şəxsiyyətlərin fəaliyyətini əsas götürürəm. Hazırda yaşanan müxtəlif problem və çatışmazlıqları, jurnalist adından sui-istifadələri nəzərə alsaq, sadiqliklə bağlı fikirlərim heç də nikbinlik naminə deyilən sözlər deyil. Mən sadəcə keçdiyimiz yolun reallıqlarına söykənirəm. Hər zaman düşünmüşəm ki, Azərbaycan xalqı ayrı-ayrı şəxsiyyətlərinin hesabına bu mərhələyə çatıb. Məsələn, 1993-cü ildə ulu öndər Heydər Əliyev olmasaydı, kim bilir, indi sizinlə söhbət edə bilərdikmi? Bu mənada hesab edirəm ki, mətbuatımızın ənənələrinə sadiqliyinin qiymətləndirilməsi mahiyyətinə kompleks yanaşılacaq hadisədir.

***- Bəs jurnalistikamızın peşəkarlığı haqqında nə deyə bilərsiniz? Bu baxımdan, hazırkı vəziyyəti necə dəyərləndirirsiniz?***

- Ümumən, Azərbaycan mediası peşəkar mediadır. Ancaq suların durulmasına ehtiyac var. Hesab etsək ki, ölkədə 5 mindən artıq KİV reyestrə alınıb, eyni zamanda KİV kimi fəaliyyət göstərən internet media resurslarının sayı da durmadan artır, yaranmış durumun peşəkarlıq baxımından yüksək qiymətləndirilməsi sadəcə mümkünsüzdür. Əslində, gerçək jurnalistika nə qədər ciddi resursa malik olsa da, çoxluğun yaratdığı ab-hava həqiqi media təmsilçilərinə baxışa da təsir göstərir. Baxış isə haqlı olaraq mənfidir. Biz çalışmalıyıq ki, bu tendensiya kökündən dəyişsin. Peşəkarlığın artırılmasının bir yolu bununla bağlı vərdişləri dərinləşdirməkdən, maariflәndirici tədbirləri artırmaqdan, peşəkarların sahədə qalıb işləmələri üçün rentabelli mühiti formalaşdırmaqdan keçirsə, digər məqam məqam sırf mənəvi amillərə söykənir. Yəni elə edilməlidir ki, informasiya dalınca hansısa idarə, müəssisə və təşkilata üz tutan peşəkara olan münasibət həmin yerə başqa məqsədlər üçün üz tutan "jurnalistə" olan münasibətdən fərqli olsun. Təcrübə göstərdi ki, bunu reallaşdırmaq vaxt alır, bəzənsə mümkün olmur. Mümkün deyilsə, demək ki, ikincilər sıradan çıxmalıdır. Bunun üçün "Kütləvi informasiya vasitələri haqqında" Qanuna düzəliş edilməli, KİV-lərin təkrar qeydiyyatı aparılmalı, internet media resurslarının KİV olaraq dövlət qeydiyyatından keçmələri təmin olunmalıdır. Ümumən sahəyə nəzarət gücləndirilməlidir. Mən əvvəldə suların durulmalı olduğunu söyləyərkən də bu tədbirlərin gerçəkləşdirilməsinin vacibliyini nəzərdə tutmuşdum. Əlbəttə, bu, çətin prosesdir, amma gedilməsi vacib olan yoldur.

Yenə də sözümün əvvəlinə qayıdaraq deyirəm ki, Azərbaycan mediası ümumən peşəkar mediadır. Amma buna müqayisəli də yanaşmaq lazımdır. Çünki peşəkarlığın dünya üzrə qəbul edilən standartları fərqlidir. Bu standartlara çatmaq üçün işlər gücləndirilməlidir. Ayrıca media peşəkarlığı institutu formalaşdırılmalıdır. Redaksiyaların texniki bazası daha da gücləndirilməlidir. KİV-lər üçün reklam mühiti olmalıdır. Bizi tam peşəkarlığa çatmaq üçün məhz bu tədbirlər gözləyir. Sözüm ondadır ki, peşəkarlıq özünü yalnız ayrı-ayrı fərdlərin ortaya qoyduqları məhsullarda göstərməməli, sahənin özünə peşəkar yanaşılmalıdır. Hesab edirəm ki, Azərbaycan dövlətinin, şəxsən cənab Prezident İlham Əliyevin də məqsədi budur. O, media nümayəndələri ilə görüşlərində dəfələrlə mövcud istiqamətdəki düşüncə və baxışlarını bölüşüb. Dövlət başçısının baxışları fundamental əhəmiyyət kəsb edir. Buna görə də vəziyyətin indikindən çox yaxşı olacağına dərin inamım var.

***- Bu gün Azərbaycan dövlətinin milli mətbuatımıza qayğısı göz önündədir. Dövlətimizin dəstəyi mətbuatın inkişafında özünü necə göstərir?***

- Mediaya diqqət və qayğı Azərbaycanda bu sahədə aparılan dövlət siyasətinin mühüm göstəricisidir. Diqqət ona əsaslanır ki, mediada dövriyyəyə buraxılan hər fikir cəmiyyət üçün önəmlidir və dövlət də fəaliyyətini məhz bu fikirlərə uyğun şəkildə qurur. Qayğı isə həmin fikirlərin daha geniş formada və konseptual səslənməsi üçün bir növ, plasdarm formalaşdırır. Ona görə də bu iki cəhət bir-birini tamamlayır. Nəzərə alınmalıdır ki, azad media olmadan cəmiyyətin inkişafından, dövlətin də beynəlxalq arenada özünü təsdiqləməsindən söhbət gedə bilməz. Azad media söz və ifadə azadlığı deməkdir. Bu dəyərlər isə dünyanın diqqətindədir. Söz və ifadə azadlığı beynəlxalq aləmdə dövlətlərə, xalqlara münasibətin formalaşmasında başlıca meyardır. Azərbaycan mediası da fəaliyyətini məhz bu meyarlara verilən dəyər üzərində qurmalıdır və qurur da.

Bilirsiniz, hər bir halda məsələyə müqayisəli yanaşılmalıdır. Yəni vəziyyət on il əvvəl necə idi, indi necədir? Düşünürəm ki, kifayət qədər müsbət irəliləyişlər var. Dövlət dəstəyi faktiki olaraq jurnalistikanı imtiyazlı sahəyə çevirib. Dünyanın heç bir yerində jurnalistlərin pulsuz mənzillə təminatı praktikası yoxdur. Media təmsilçiləri üçün iki yaşayış binası istifadəyə verilib, üçüncüsünün inşası davam etdirilməkdədir. Bəzən müəyyən fikirlər səslənir ki, bu, jurnalistləri asılı salmaq üçün edilir. Təbii, bu baxışlar yalnış və qərəzdidir. Çünki ötən müddətin təcrübəsi göstərir ki, evlə təmin olunan jurnalistlərdən heç biri özünün yaradıcılıq dairəsini daraltmayıb, əksinə onlar peşələrinə daha sıx surətdə bağlanıblar, inkişafda pay sahibinə çevriliblər. Dövlətin dəstəyi məhz bu baxımdan əhəmiyyətli olub.

Digər tərəfdən, redaksiyaların maddi-texniki bazası möhkəmlənib. Onlar özlərini müasir avadanlıqlarla təmin etmək imkanı əldə ediblər. Bu isə yaradıcıq üçün geniş meydan deməkdir. Əlbəttə, problemlər də var və onların aradan qaldırılması "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası" üzrə görülən işlərin intensivləşdirilməsindən asılı olacaq. Parlamentin üzvü kimi, ümumən mediaya dövlət tərəfindən ayrılan vəsaitin artırılması ilə bağlı təkliflər irəli sürmüşəm. Məsələ ümumən media ictimaiyyətinin gündəmindədir. Hesab edirəm ki, vəsaitin artırılması bu sahədə daha intensiv işlərin görülməsinə şərait yaradacaq.

***- Əflatun müəllim, bəs hazırkı dövrdə mətbuatımız qarşısında nə kimi vəzifələr dayanır?***

- Ən böyük vəzifə dünyanın informasiya məkanına daha sıx surətdə inteqrasiyanı həyata keçirmək, bunu dönməz prosesə çevirməkdir. Bizim dünyanın dilində danışacaq jurnalistlərimiz olmalıdır. Yalnız dil biliklərindən söhbət getmir. Məsələ düşüncə yetkinliyində, dünyanın, xüsusən də Avropanın başa düşəcəyi tərzdə davranmaqdan gedir. Əlbəttə, buna nail olmaq çətindir, ancaq son dərəcə vacibdir. Qloballaşma dövründə informasiyanın mahiyyətinə dəyəri məhz belə əməli fəaliyyətlə verməliyik. Proses heç də ayrı-ayrı jurnalistlərin fərdi keyfiyyətləri üzərində qurulmamalıdır. İstər mənəvi, istər peşəkarlıq baxımından fərdi keyfiyyətləri yüksək olan jurnalist nəsli yetişməlidir. Yenə də deyirəm, ümumən vəzifə budur və digər vəzifələrin reallaşması da buna xidmət etməlidir.

Başqa vəzifələrə gəldikdə, əlbəttə, jurnalistikamızda ixtisaslaşma dərinləşməlidir. Bunun üçün təhsil müstəvisində konkret zəmin var. Məlumdur ki, ali məktəblərin jurnalistika fakültələrinin magistratura pillərinə qəbulda humanitarla yanaşı digər ixtisas sahiblərinin istəkləri nəzərə alınır. Yəni faktiki olaraq müxtəlif sahələri təmsil edən bakalavrlar özlərini peşəkar jurnalist kimi təsdiqləyə bilərlər.

Əslində, qarşıda duran vəzifələrin böyük bir qismindən söhbət açdıq. Mən bir qədər ümumiləşdirmə aparmaq istərdim. 143 illik mətbuat tariximizin, Cümhuriyyətin iki ilini və müasir müstəqillik dövrünü götürsək, üst-üstə 29 ili dövlətçilik tariximizlə bağlıdır. Bu müddət bir sahədə tam əsaslı işlərin görülməsi üçün o qədər də böyük deyil. Nəzərə alaq ki, 29 ilin özünün çətinlikləri və məhrumiyyətləri olub. Buna baxmayaraq, böyük vəzifələr reallaşdırılıb və daha böyük vəzifələr də həyata keçirilməkdədir.

## Gəncədə törədilmiş cinayətlərlə bağlı daha 7 nəfər həbs edilib



İyulun 10-da Gəncə şəhərində törədilmiş cinayətlərlə bağlı daha 7 nəfər, o cümlədən axtarışda olan İbrahimov Samir Ramiz oğlu həbs edilib. Hüquq mühafizə orqanlarından AZƏRTAC-a daxil olan məlumata görə, 10 iyul hadisələrinə görə ümumilikdə 22 nəfər həbs edilib. Bir nəfər bu gün gecə saatlarında Azərbaycan-Gürcüstan sərhədini Qazax rayonu ərazisindən keçmək istəyərkən saxlanılıb.

Eyni zamanda, məlumata görə, iyulun 3-də Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevin həyatına sui-qəsdlə bağlı ümumilikdə 13 nəfər həbs edilib. Səkkiz nəfər barəsində isə axtarış elan olunub. Əməliyyat-axtarış tədbirləri davam etdirilir.

## Gəncə hadisələri ilə bağlı daha bir neçə şəxs saxlanılıb



Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevin həyatına sui-qəsd törətmiş Yunis Səfərovun əvvəllər hazırda İran İslam Respublikası ərazisində yaşayan Tohid İbrahimbəyli tərəfindən hərbi təlimlər keçmək və döyüşlərdə iştirak etmək üçün Suriya ərazisinə göndərildiyi müəyyən edilib.

Hüquq mühafizə orqanlarından AZƏRTAC-a bildiriblər ki, mütəmadi olaraq Azərbaycan dövlətçiliyi əleyhinə radikal çağırışlar edən Tohid İbrahimbəyli hələ 2017-ci ilin yanvarında radikal şiə təriqətçilərinə məxsus "nur-az.com" internet saytı vasitəsilə Elmar Vəliyevin öldürülməsinə çağırış edib. Yunis Səfərovla bağlı məlumatın araşdırılması zamanı məlum olub ki, bir sıra Azərbaycan vətəndaşları 2013-2016-cı illər ərzində Tohid İbrahimbəyli tərəfindən İranın Qum şəhərində toplanaraq maddi maraq qarşılığında qanunsuz silahlı birləşmələrin tərkibində döyüşlərdə iştirak etmək üçün Suriya ərazisinə göndəriliblər.

Belə ki, istintaq zamanı Göyüşov Taleh Həsən oğlu və Tohid İbrahimbəylinin yaxın qohumları İbrahimli Həbib Əkbər oğlu, Musayev Pərviz Əlimusa oğlu, Ziyadov Elmir Savadxan oğlunun Yunis Səfərovla birgə İran İslam Respublikasının Qum şəhərində Tohid İbrahimbəyli tərəfindən təşkil edilmiş gizli toplantıda və Suriya ərazisində qanunsuz silahlı birləşmələr tərkibində döyüşlərdə iştirak etdikləri müəyyən edilib. Həmçinin müəyyən olunub ki, Taleh Göyüşov bu il iyulun 10-da Gəncədə polis əməkdaşlarına soyuq silahla hücum edilməsi ilə müşayiət olunan qanunsuz aksiyanın fəal iştirakçısı olub. Həmin şəxslər iyulun 14-də Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşları tərəfindən saxlanılıb və cinayət məsuliyyətinə cəlb olunublar.

## Sinoptiklərdən xəbərdarlıq: Leysan yağacaq, dolu düşəcək

Sinoptiklər ölkə ərazisində yağıntılı hava şəraiti ilə bağlı xəbərdarlıq ediblər. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a bildirilib ki, iyulun 16-sı axşamdan iyulun 18-dək Azərbaycanın rayonlarının bəzi yerlərində şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə yağışın leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi dağ çaylarında sululuğun artacağı, qısamüddətli sel olacağı proqnozlaşdırılır.

# Gəncədən sonra Sumqayıt - bu, bir təsadüfdürmü?

*Və ya Qumdan Azərbaycana uzanan qara əllər kökündən kəsilir*

***Bəlli Gəncə olaylarının ardınca, Sumqayıtda da eyni ssenarinin yaşadılması cəhdi, yəni təxribatçılıq və terror hadisələri törətmək planı, ilk növbədə, belə bir sualı gündəmə gətirdi - bu, bir təsadüfdürmü? Söz yox ki, əgər hər iki hadisədə radikal dini qrupların mövcudluğu varsa, ortada hər hansı bir təsadüfdən danışmaq olmaz. Daha dəqiq desək, Yunis Səfərovun Gəncə şəhərinin icra hakimiyyətinin başçısına qarşı törətdiyi sui-qəsd olayı yenə də həmin şəhərdə Rəşad Böyükkişiyev və Fərrux Qasımov tərəfindən iki polis zabitimizin vəhşicəsinə öldürülməsi, sonradan onlardan birinin həbs olunması, digərinin isə aparılan əməliyyat zamanı, polisə qarşı qumbara atmaq istərkən məhv edilməsi, ardınca isə Sumqayıtda baş verən hadisələr, bilavasitə bir-biri ilə bağlılıq təşkil edir.***

### Saxlanılmalar davam edir

Əbəs deyil ki, Sumqayıt şəhərində hüquq-mühafizə orqanlarının qətiyyəti və peşəkarlıqla həyata keçirdiyi əməliyyat nəticəsində, radikal dini qrupların və onlara dəstək verən dağıdıcı müxalifət tərəfdarlarının 18 əsas fəalı saxlanıldı.

Hüquq-mühafizə orqanlarından daxil olan rəsmi məlumata görə, əsasən, xaricdən idarə olunan fəallar Gəncədə baş vermiş hadisələri Sumqayıt şəhərində təkrarlamaq, iğtişaş və qarşıdurma yaratmaq yolu ilə şəhərdə ictimai-siyasi sabitliyi pozmağı planlayırmışlar. Onların fəaliyyəti barədə hüquq-mühafizə orqanlarına daxil olan məlumatlar əsaslı şəkildə təhlil edilib, müvafiq tədbirlər vasitəsilə radikalların əlaqələri təsbit olunub və planları tam aşkara çıxarılıb, məhz bundan sonra saxlama tədbirlərinin həyata keçirilməsi barədə qərar qəbul edilib.





### Təxribatçı və terrorçu qüvvələr xəbərdarlığa ciddi yanaşmayıblar və nəticədə, qarşılarında hüquq-mühafizə orqanlarının xüsusi təyinatlılarını görüblər

Daha bir vacib məqamı da xatırlatmaq yerinə düşərdi ki, güc strukturları rəhbərlərinin iştirakı ilə keçirilən müşavirədə Azərbaycan Prezidenti İlham Əliyev bu hadisələrlə əlaqəsi olan hər bir kəsin məsuliyyətə cəlb olunacağı və ədalət məhkəməsi qarşısında cavab verəcəyi barədə xəbərdarlıq etmişdi.

Göründüyü kimi, müəyyən təxribatçı və terrorçu qüvvələr bu xəbərdarlığa ciddi yanaşmayıblar və nəticədə, qarşılarında hüquq-mühafizə orqanlarının xüsusi təyinatlılarını görüblər.

Bu arada, radikal dini qruplaşma üzvlərinin əksəriyyətinin İranın Qum şəhərində təhsil aldıqları, hətta Suriyada Bəşər Əsəd qüvvələri tərəfində döyüşdükləri barədə faktlar da üzə çıxmaqdadır. Onların verbovkası və təsir dairəsinə alınmalarında isə Tohid İbrahimbəylinin adı meydana çıxdı. Daha dəqiq desək, T.İbrahimbəylinin bu istiqamətdə İranda dini təhsil alan azərbaycanlı tələbələrə xüsusi diqqət yetirdiyi məlum olub.




### Tohid İbrahimbəyli Qum tələbələrini Azərbaycanda silahlı münaqişəyə hazırlamaq niyyətində olduğunu bildirib

Belə ki, T.İbrahimbəyli 2015-ci ilin sonu, 2016-cı ilin əvvəllərində Qum və Məşhəd şəhərində dini təhsil alan 14 nəfərə Suriya ərazisində "İŞİD" ilə mübarizə üçün azərbaycanlı tələbələrdən ibarət "Hüseyniyyun" (hüseynçilər) adlı silahlı dəstə yaratmaq niyyətində olduğunu bildirib. Rəsmi məlumata görə, T.İbrahimbəyli həmin 14 tələbəni əvvəlcə Qum şəhərində İsgəndər Hüseynovun iş yerində ("Nur" Tərcümə Müəssisəsi) toplayıb, 1 gün gözlədikdən və təlimatlandırdıqdan sonra Dəməşq şəhəri yaxınlığında yerləşən hərbi hissəyə aparıb. Dəməşq şəhərində olarkən T.İbrahimbəyli onları təkcə "İŞİD" ilə mübarizəyə deyil, həm də Azərbaycanda silahlı münaqişəyə hazırlamaq niyyətində olduqlarını bildirib və bununla əsl hədəfin Azərbaycan olduğunu nümayiş etdirib.

### Bu planların hər biri öncədən hazırlanaraq, hüquqi dövlət olan Azərbaycanda çaxnaşmalar, xaos və vətəndaş itaətsizliyi törətmək məqsədini güdüb

Beləliklə, gizli qruplar şəklində məkrli planlarını icra etmək istəyən radikal dini qrupların üzvləri saxlanıldıqca, Gəncə və Sumqayıt olaylarının görünməyən tərəfləri də üzə çıxmağa başlayır. Xüsusilə, dağıdıcı müxalifət partiyalarının üzvlərinin də həbs edilməsi də, belə deməyə kifayət qədər zəmin yaradır ki, bu planların hər biri öncədən hazırlanaraq, hüquqi dövlət olan Azərbaycanda çaxnaşmalar, xaos və vətəndaş itaətsizliyi törətmək məqsədi güdüb. Lakin hüquq-mühafizə orqanlarımızın, DİN və DTX-nın keçirdikləri birgə operativ əməliyyatları, eləcə də, həmin əməliyyatların davamı, belə deməyə əsas verir ki, Azərbaycan dövləti və xalqı etibarlı əllərdədir. İstənilən daxili və xarici qüvvələr nə zaman öz əllərini dövlətimizə qarşı uzadarlarsa, həmin əllər kökündən kəsiləcək!

***Rövşən RƏSULOV***

# Dünyəvi dövlətin sarsılmazlığı Gəncə hadisələrinin sifarişçiləri üçün ən ağır cəzadır

***Bu günlərdə Azərbaycan cəmiyyəti respublikanın ikinci ən böyük şəhəri olan Gəncədə baş vermiş faciəli hadisələri fəal müzakirə edir. Baş vermiş hadisələr barədə düşündükcə bir daha yəqin edirsən: tarix təkrarlanma xüsusiyyətinə malikdir. Axı, Azərbaycanın ən yeni tarixində belə hallar olub ki, respublikanın həyatında sıçrayış xarakterli mühüm hadisələrdən sonra ölkəmizin uğurlarını gözü götürməyən qüvvələr iğtişaşlar törətməyə və sabitliyi pozmağa cəhd göstəriblər. 1994-cü ilin payızını xatırlayaq. Həmin il sentyabrın 20-də Azərbaycanın sürətli iqtisadi inkişafının və indiki qüdrətinin təməlini qoymuş "Əsrin müqaviləsi" imzalandı. Bundan bir həftə sonra terror aktı nəticəsində respublikanın iki məşhur siyasi və dövlət xadimi - Milli Məclisin sədr müavini Afiyəddin Cəlilov və Prezident yanında Xüsusi İdarənin rəisi Şəmsi Rəhimov qətlə yetirildi. Daha bir neçə gündən sonra, oktyabrın 3-4-də Azərbaycanda silahlı dövlət çevrilişi törətməyə cəhd göstərildi.***



***Aslan Aslanov***
***AZƏRTAC-ın İdarə Heyətinin sədri, Dünya Xəbər Agentlikləri Konqresinin, Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) prezidenti***

İstər-istəməz paralellər aparmalı oluruq. Bu il mayın 29-da Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimi keçirildi. Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən, dəyəri 40 milyard dollardan çox olan bu möhtəşəm layihə Avrasiyanın enerji xəritəsinin formatını dəyişəcək. İyunun 12-də isə Türkiyənin Əskişəhər şəhərində Cənub Qaz Dəhlizinin tərkib hissəsi olan Trans-Anadolu boru kəməri - TANAP işə salındı. Bu kəmər vasitəsilə Azərbaycan qazı Avropaya nəql ediləcək. Nəhayət, iyunun 26-da Bakıdakı Azadlıq meydanında hazırda dünyanın ən güclü 50 ordusu sırasına daxil olan, döyüş qabiliyyətli və ən müasir silahlarla təchiz edilmiş ordu yaratmağa nail olmuş Azərbaycanın hərbi qüdrətini bütün dünyaya nümayiş etdirən möhtəşəm parad keçirildi. Azərbaycanın inamlı, ardıcıl irəliləyişini, onun dünyada artan nüfuzunu gözləri götürməyən qüvvələr bu dəfə də ölkədə sabitliyi, əhalinin sakit həyatını pozmağa və qarşıdurma yaratmağa cəhd göstərdilər. Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevə sui-qəsd edildi, bundan bir həftə sonra isə din pərdəsi altında bir qrup radikal şəhərdə iğtişaş törətməyə cəhd göstərdi. Təəssüf ki, qan töküldü - hüquqazidd hərəkətlərin qarşısının alınması prosesində iki polis zabiti şəhid oldu.

Fikir verin - hər iki halda Azərbaycana düşmən qüvvələrin dəst-xətti və texnologiyaları eynidir. Lakin onlar yanıldılar, çünki 1994-cü ildə ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında sabit, demokratik və hüquqi dövlət qurulması yolunda ilk addımlarını atan Azərbaycan ölkəni qorumağa, onu xaosdan və sarsıntılardan müdafiə etməyə nail olmuşdu, indi isə respublikamızın qüvvələri və imkanları qat-qat artıb, səmərəli fəaliyyət göstərən hakimiyyət orqanları, sabitliyi və hüquqi qaydanı təmin etməyə qabil olan hüquq-mühafizə orqanlarının formalaşdığı bir şəraitdə bədxahlarımız heç nəyə ümid edə bilməzlər. Lakin burada başlıca amil, əlbəttə, iqtidar ilə xalqın birliyidir. Prezident İlham Əliyev hüquq-mühafizə orqanları rəhbərlərinin iştirakı ilə keçirilən iclasdakı çıxışında bunu xüsusi vurğulayıb. Həqiqətən bu birlik sarsıntılar dövründə ölkəni qorumağa qabil olan böyük qüvvədir. Bu birlik 1994-cü ilin oktyabrında da özünü göstərdi: o vaxt ulu öndər Heydər Əliyevin bir çağırışı ilə on minlərlə insan qanuni hakimiyyəti müdafiə etmək üçün Prezident Administrasiyasının binası qarşısında toplaşdı. Bu birlik sonralar da - ölkə üçün çətin olan bütün məqamlarda, o cümlədən bu günlərdə baş vermiş Gəncə hadisələri zamanı yenidən parlaq şəkildə təzahür etdi: Azərbaycan xalqı göstərdi ki, o, öz dövlətinin, öz Prezidentinin yanındadır və xaricdə qurulan, ölkəmizi Yaxın Şərqin bir sıra ölkələrində baş verən və bu gün də davam edən qanlı hadisələr və terror arenasına çevirmək niyyəti güdən məkrli ssenarilərin burada həyata keçirilməsinə imkan verməyəcək.

Baş verən hadisələrin ən iyrənc cəhəti ondan ibarətdir ki, bu çirkin planların təşkilatçıları və icraçıları dini şüarlarla pərdələnir və çox həssas bir materiya - insanların dini hissləri ilə oynamağa çalışırlar. Lakin bütün bunların İslam dini ilə heç bir əlaqəsi yoxdur. Əvvələn, terrorçunun nə inamı, nə imanı, nə vətəndaşlığı, nə vətəni var, onun nəzərində heç bir müqəddəs dəyər yoxdur. Allahın adından istifadə edərək insanları Ulu Tanrının bəxş etdiyi həyatdan məhrum etmək olmaz. Bu, heç bir vasitə ilə bəraət qazandırıla bilməyən ən böyük günahdır. Yeri gəlmişkən, digər səmavi dinlərdə olduğu kimi, İslamda da hər bir insanın həyatı dəyərlidir.

Azərbaycanlılar müsəlman Şərqində ilk demokratik, parlament respublikasını yaradan xalqdır. Xalqımızın dövlətçilik tarixi Midiya və Atropatenadan başlanır! Biz XI qırmızı ordunun 1920-ci ildə son qoyduğu müstəqilliyimizin bərpasına yüzdən çox şəhidin həyatı bahasına nail olmuşuq. Dünyəvi dövlət və demokratiya ölkə əhalisinin böyük əksəriyyətinin şüurlu seçimidir. Bəs, bir ovuc bədbəxt radikal nə istəyir - öz məkrli "dəyərlərini" milyonlarla azərbaycanlıya sırımaqmı?

Bir fakt şübhəsizdir: Azərbaycanın inkişafını, onun sabitliyini istəməyən qüvvələr bu addımı bizim dövlətçiliyimizə, müstəqilliyimizə qarşı atıblar. İyulun 13-də respublikanın hüquq-mühafizə orqanlarının rəhbərlərinin iştirakı ilə keçirilmiş iclasda dövlətimizin başçısı İlham Əliyev məhz bu məqamı vurğulayıb: "Bu qanlı terror aktları cəmiyyətdə gərginlik yaratmaq və cəmiyyətimizi qorxutmaq məqsədilə törədilmişdir. Bu terror aktları dini şüarlar altında törədilmişdir. Bu, özlüyündə İslam dininə qarşı ən böyük cinayətdir. Çünki İslam sülh, mərhəmət dinidir. Azərbaycan dövləti və Azərbaycan xalqı öz milli, dini dəyərlərini daim qoruyur. Azərbaycan İslam mədəniyyətini dünyada ən çox təbliğ edən ölkələrdən biridir".



Gəncədə atəş açılandan sonrakı ilk günlərdə özlərinin nadanlığı ucbatından cinayətkarı sosial şəbəkələrdə "qəhrəmana çevirmək" üçün cəhd göstərənlər bunu anlamalıdırlar. Xoşbəxtlikdən belələri azdır və onlar xəcalət çəkməlidirlər. Onlar başa düşməlidirlər ki, Azərbaycanda ekstremizm keçməyəcək, ilk növbədə, ona görə ki, xalq özü onu qəbul etmir. Ekstremizm xalqımıza yabançıdır. Prezident çıxışında bunu da qeyd edib: "Bu cinayətkarlar müsəlman deyillər. Cinayətkarlar və onların arxasında dayananlar heç vaxt öz məkrli arzularına çata bilməyəcəklər. Azərbaycan dövləti və Azərbaycan xalqı buna heç vaxt imkan verməyəcək. Bütün Azərbaycan xalqı bu qanlı cinayətləri birmənalı olaraq pislədi və bu cinayətləri törədənlərə qarşı öz nifrətini ifadə etdi".

Daha bir məqamı qeyd etmək istərdim. Gəncədə iğtişaş törətməyə cəhd göstərmiş ekstremistlərin və satqınların hərəkətləri elə həmin günlərdə ölkəmizin həyatında baş vermiş çox mühüm hadisənin üzərinə kölgə sala bilmədi. NATO-nun Brüsseldə keçirilmiş Sammiti çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevin və Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun iştirakı ilə Azərbaycan ilə Avropa İttifaqı arasında "Tərəfdaşlıq prioritetləri" sənəd paraflandı. Bu, böyük uğurdur, çünki həmin sənəddə aşkar şəkildə qeyd edilir ki, Avropa İttifaqı Azərbaycanın ərazi bütövlüyünü, müstəqilliyini, suverenliyini və onun sərhədlərinin toxunulmazlığını dəstəkləyir. Həmçinin ölkəmizin təşəbbüsü ilə həyata keçirilən "Cənub Qaz Dəhlizi" layihəsinin başa çatdırılması Avropa İttifaqının əsas prioritetlərindən biri adlandırılıb (yeri gəlmişkən, eyni vaxtda ABŞ Dövlət Departamenti də bunu bəyan edib), respublikamızın mədəniyyətlərarası dialoqa böyük töhfəsi qeyd olunub, bu sahədə əməkdaşlığın inkişaf etdirilməsinə maraq ifadə edilib. Avropa İttifaqının yüksək vəzifəli nümayəndələri sosial şəbəkələrdəki səhifələrində vurğulayıblar ki, "Tərəfdaşlıq prioritetləri" sənədi Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlərin inkişafına yeni impuls verib. Bu, Prezident İlham Əliyevin yürütdüyü siyasətin çox böyük diplomatik uğurudur. Təzadlar göz qabağındadır: bir tərəfdə Avropa ölkələri ailəsində Azərbaycanın işıqlı gələcəyinə yönəlmiş addımlar, dövlətin və xalqın mənafelərini hər şeydən üstün tutan, insanların dinc, sakit, firavan həyatının təmin edilməsinə, ümumbəşəri dəyərlərin təntənəsinə yönəlmiş siyasət, digər tərəfdə isə ölkəni orta əsr bataqlığına, nadanlığa sürüməyə, onu hər hansı perspektivlərdən məhrum etməyə, vətəndaş qarşıdurması yaratmağa çalışan bir ovuc radikalın hüquqazidd hərəkətləri. Sosial şəbəkələrdə öz maddi maraqları naminə şeytanın özünə belə qulluq etməyə hazır olan, insan adlandırılmağa layiq olmayan varlıqları "qəhrəmanlar" kimi qələmə vermək yox, bu təzadlar barədə yazmaq lazımdır.

Gəncə hadisələrinin hüquq-mühafizə orqanları tərəfindən isti izlərlə aparılmış təhqiqatlar radikal ekstremistlər şəbəkəsini aşkar etməyə imkan verib. Müəyyənləşdirilib ki, ekstremistlər Gəncə hadisələrini ölkənin başqa şəhərlərində, o cümlədən Sumqayıtda da təkrar etməyi planlaşdırırmış. Artıq onlarca ekstremist həbs edilib və şübhə yoxdur ki, onlar hamısı layiqli cəzalarını alacaqlar. Heç kəs məsuliyyətdən yaxa qurtara bilməyəcək. Prezident İlham Əliyev bunu qətiyyətlə bəyan edib.

Bu yaramazlar və onların xaricdəki sifarişçiləri üçün ən böyük cəza isə Azərbaycan dövlətinin sarsılmazlığı, xalq ilə iqtidarın möhkəm birliyidir!

# Sahib Məmmədov: "Təxribatları təşkil edən qüvvələr bilirdilər ki..."

*SİA hüquq müdafiəçisi, Vətəndaşların Əmək Hüquqlarının Müdafiə Liqasının sədri Sahib Məmmədovun teleqraf.com-a verdiyi müsahibəni təqdim edir:*

***- Gəncədə icra başçısına qarşı sui-qəsd cəhdi, ardınca iki polis zabitinin ölümü ilə nəticələnən aksiyalar oldu. Artıq sözügedən olaydan bir neçə gün keçir, bu müddət ərzində müşahidələrinizə əsasən, necə hesab edirsiniz, bu hadisələr niyə baş verdi?***



- Yerli icra hakimiyyəti orqanlarının yaxşı işləməməsi və insanların narazı olduğu barədə deyilənlər bəhanədir. Fikrimcə, səbəb tamam başqadır. Azərbaycana qarşı zaman-zaman xaricdən və onların daxildəki havadarları tərəfindən bu cür və başqa xarakterli təxribatlar olur. Prezident seçkiləri dövründə Avropada söyüş kampaniyası başladılmışdı, seçkidən dərhal sonra xalqı qıcıqlandıran məsələləri qabartmaqla nifrət layihəsini işə salmışdılar. Avropa və Qərb üzərindən əhali arasında kütləvi narazılıq yaratmaqda əsas məqsəd Azərbaycanı nəyəsə məcbur etmək və ya nədənsə çəkindirməkdir. Bunlar da alınmayanda təxribat və iğtişaşlara cəhd etməyə başlayırlar. Son olayları heç Gəncə ilə də bağlamaq istəməzdim. Zəncirvari proseslər gedir və bunun tərkib hissəsi də Gəncədə oldu. İlk andan bunlar nə qədər lokal görünsə də, dövlətin gücü ilə müqayisədə çox cılız olsa belə, çox təhlükəlidir. Ola bilsin, onlar dövlətin zəif yerlərini müəyyən etməklə gələcəkdə daha təhlükəli strategiyalar qurmaq üçün test edirlər. Bu təxribatları təşkil edən qüvvələr özləri də əvvəldən bilirdilər ki, burada uğur olmayacaq. Onlar bir test, yoxlanış keçirirdilər ki, görək harada daha zəif zəncir tapmaq olar. Dövlət bütün gücündən istifadə edərək, bu hadisənin baş verməsinin səbəbləri ətrafında geniş analiz aparmalıdır.

***- Sizin versiyanız nədir?***

- Hələ mart ayında başlayan söyüş kampaniyası zamanı bildirmişdim ki, proses davamlı olacaq, buna lokal hal, siyasi rəhbərliyə daxil olan şəxslərin təhqiri kimi baxmaq düzgün deyil. Növbəti prezident seçkiləri bu ilin oktyabrında keçirilməli idi. Lakin növbədənkənar prezident seçkiləri baş tutdu. Həmin qüvvələr ideoloji təxribat maşınlarını payızda işə salmağı planlaşdırırdı deyə qəfil seytnot vəziyyətinə düşdülər. Nəticədə irimiqyaslı təxribat kampaniyası keçirmədilər deyə vəziyyətlə barışa bilmirdilər. Son bir ayda ölkənin siyasi, iqtisadi həyatında baş verən əhəmiyyətli məsələləri izləyəndə cavab ortaya çıxır. TANAP layihəsinin işə düşməsi, Azərbaycan ordusunun 100 illiyi ilə bağlı möhtəşəm paradın keçirilməsi, "Türk ulduzları"nın Bakı səmasındakı nümunəvi uçuşları, Azərbaycan Prezidentinin NATO sammitində iştirak etməsi, Avropa İttifaqı ilə əvvəlcədən planlaşdırılan ikitərəfli layihənin paraflanması kimi məsələlər bizə dost olmayan qüvvələri qıcıqlandırdı. Erməni faktorunu da yaddan çıxarmaq olmaz. Azərbaycan əleyhinə yönələn tədbirlərdə onları bu işə cəlb etməsələr də özlərini dürtüb iştirak edirlər. Son hadisələrdə propaqanda maşını İrəvan və Avropada olan Ermənistan şəbəkəsinə bağlı olan KİV-lər üzərindən quruldu. Bu proseslərin arxasında yalnız ermənilərin durduğunu demək sadəlövhlük olardı, daha böyük güclər idi, ermənilər də bu fürsətdən bəhrələndilər.

***- Ölkədə radikal islamçılara dövlətin hüquqi əsaslarına qarşı sistemli çağırışlar edən saytlara, sosial şəbəkə istifadəçilərinə qarşı hansı tədbirlər görülməlidir?***

- Elə məsələlər var ki, onunla bağlı tədbir görmək çətindir. Əvvəllər internet yayım üçün domen adı alırdılar, indi heç ona ehtiyac duymurlar, sosial şəbəkələr üzərindən hər kəs yayım edə bilir. Bəzən mübarizə özü Don Kixotluğa gətirib çıxarır. Azərbaycan elə dövlət deyil ki, sosial şəbəkələri kökündən sındırsın. Bizdə azad internet məkanı var. Ən böyük silah əks-təbliğatdır. Təhsilin səviyyəsi yüksəldilməli, vətəndaş cəmiyyəti inkişaf etdirilməlidir. Gələcəkdə insanları çaşdırıb səhv yola çağırmamaq üçün ən yaxşı vasitə dövlət mövqeyində olan vətəndaş cəmiyyəti, yəni QHT-lər, KİV-lər, təşkilatlanmamış fəallarin olmasıdır.

***- Bəs daxildən bu xəyanətkarları dəstəkləyən kimlərdir?***

- İlk növbədə QHT-lərdən başlayaq. Bizim QHT-lərə virus toxumu çoxdan səpilib. Əhəmiyyətli sayda QHT-lər Avropadakı PİN təşkilatı vasitəsilə erməni şəbəkələrinə cəlb ediliblər. Onlar istənilən variantda anti-Azərbaycan proseslərinə qoşulurlar. Bu proseslərdə vaxtilə Azərbaycanda olan QHT-lər fəallıq göstərirdilər. İkincisi, radikal dini qruplaşmaları təmsil edən qüvvələrə bağlı KİV-lər idi. Siyasi partiyalara gəlincə, ölkəmizdə 60-dan çox siyasi partiya var, çoxunun bazası zəif olsa da, əksəriyyəti dövlət mövqeyindən çıxış elədi. Pik vaxtda AXCP üzvü olan şəxslər Avropadan və daxildən açıq çağırışlara qoşulmuşdular. Bir qismi sonradan statuslarını silməyə başladı. Amma hamı gördü ki, öz liderlərinin fotosunu sosial şəbəkədəki hesablarında ön profildə qoyanlar şüarlar səsləndirir, dezinformasiyalar yayır. Onlar təxribatçı videogörüntüləri tirajlayıb deyirdilər ki, başqa yerlərdə də əhali ayağa qalxıb, iğtişaş nəzarətdən çıxıb və sair. Məqsəd o idi ki, daha çox çaşqınlıq yaransın, yerlərdə də bu qruplar hərəkətə keçsin. Gəncədə lokal hadisə bir qədər genişlənsəydi, başqa yerlərdə də həmin şəbəkənin təşkilatçıları baş qaldıracaqdı. Ona görə də dövlətin müvafiq qurumlarını bu məsələləri dərindən öyrənməyə səsləyirəm.

***- Bu hadisələr zamanı Yunis Səfərovun qəhrəman elan olunması cəhdləri də vardı. Qənimət Zahid, Arif Məmmədov, Orduxan Bəbirov, Qurban Məmmədov, Tural Sadıqlı və digərləri iğtişaşlara, qanuni hakimiyyəti devirməyə çağırışlar edirdi...***

- İstənilən halda sui-qəsd törətmiş adamı qəhrəman elan etmək çox pis haldır. Azərbaycan dövləti həmin şəxslərlə bağlı cinayət işi başlamalı və tutulub ölkəyə ekstradisiyası üçün İnterpolun xətti ilə axtarış elan etməlidir. Demirəm ki, burada böyük nailiyyət əldə olunacaq. Çünki onların arxasında bizə düşmən olan xarici qüvvələr dayanıb. Sui-qəsd törədən və terror aktı təşkil edən şəxsi dəstəkləmək olmaz. Bu, terrora dəstək vermək deməkdir. Hesab edirəm ki, terrora və terrorçuluğa çağırışlar edənlərə qarşı harada olmasından asılı olmayaraq, cinayət işi açılmalıdır. Sosial şəbəkələrdə saxta profillər sahibləri müəyyənləşməli, onlara və arxasından duranlara qarşı tədbir görülməlidir. Zaman-zaman onları ekstradisiya etmək lazımdır ki, dərs alsınlar. Terroru, iğtişaşı, təxribatı dəstəkləməyin adekvat cavabı olmalıdır.

***- Gəncə hadisələrinin təkrarlanmaması üçün hansı tədbirlər həyata keçirilməlidir?***

- Dövlət institutları baş verənlərdən nəticələr çıxarmalıdır. Hətta bəhanələr də təhlil olunmalıdır. Təxribatları törədən şəxslər müəyyən edilməli, ölkənin strateji əhəmiyyət daşıyan obyektlərinin qorunması, ideoloji planda radikalizmi təbliğ edən qruplaşmaların zərərsizləşdirilməsi üçün əlavə tədbirlər görülməlidir. Bayaq vətəndaş cəmiyyətinin inkişaf etdirilməsinin vacibliyini vurğuladım. Dini radikalizmə qarşı mübarizə aparılmalı, əhalini narahat edən məsələlərlə bağlı diskussiyalar keçirilməli və problemlərin həllinə yönələn açıq dövlət siyasəti ortaya qoyulmalıdır. Əks-propaqanda primitiv üsullara söykənməyib, onların əllərində əhaliyə təsir etmək üçün xeyli güclü "silahlar" var. Nifrət layihəsini icra edəndə villa şəkli qoyub yazırdılar ki, filan məmurundur, yanına koma fotosu qoyub deyirdilər şəhid atasınındır. Bəlkə heç o villa həmin məmurun, yaxud koma da şəhidin valideynlərinin deyil. Amma bu foto ətrafında açılan diskussiya ilə öz işlərini görürdülər. Bu məsələlərin qabağına çıxmaq lazımdır. Bunu da maarifləndirmə, geniş izahat işləri aparmaqla, vətəndaş cəmiyyəti iştirakçılığı ilə etmək mümkündür.

# Terrorun media ayaqları...



Taleh Şahsuvarlı

***Terror aktını hazırlayan qruplar, adətən, medianı hadisələrin mərkəzinə çəkməyə çalışırlar. Bu da ondan irəli gəlir ki, terror hər zaman cəmiyyətdə xof və xaos yaratmaq məqsədi ilə törədilir. Gerçəkləşdirilən qanlı aktlardan sonra həm icraçılara ictimai dəstək qazandırılması, həm də cəmiyyətin əsas kəsimlərində vahimə yaradılması üçün kütləvi kommunikasiya vasitələrindən istifadə edilir. Bu taktikanın qarşısının alınması üçün media qurumlarının rəhbərlərinin peşəkarlığı ilə yanaşı, rəsmi şəxslərin cəmiyyəti ardıcıl məlumatlandırmaları, lakin bu məlumatlandırma zamanı cəmiyyətin panik vəziyyətə düşməsinin qarşısını almağa diqqət göstərmələri çox mühümdür.***

Təqdirə layiq haldır ki, Gəncədəki məlum terror hadisəsindən dərhal sonra rəsmi instansiyalar cəmiyyəti məlumatlandırmağa çalışdılar. Gəncənin icra başçısına silahlı hücum edilməsindən bir qədər sonra Azərbaycan Prezidentinin ictimai siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov xüsusi açıqlama verdi. Əli Həsənovun həmin açıqlaması İctimai Əlaqələr kontekstində ilk reaksiya kimi kifayət qədər səriştəli idi, Azərbaycan cəmiyyətini məlumatlandırmaqla yanaşı, terror aktını planlayanların qarşılarına qoyduğu xof və xaos yaratmaq məqsədini alt-üst edirdi. Əli Həsənov, heç şübhəsiz, təcrübəli dövlət yetkilisi kimi bilirdi ki, silahlı və qanlı insidentin təfərrüatları hüquq-mühafizə orqanları tərəfindən araşdırılacaq. Bu cür araşdırma aparılmadan, konkret dəlillər istintaqa məlum olmadan hadisələri "terror" kimi təqdim etmək həm hüquq, həm də ictimai və milli maraqlar baxımından doğru olmazdı. Təsadüfi deyil ki, gün ərzində güc strukturlarının, xüsusi xidmət orqanlarının müvafiq məlumatları yayımlandı. Növbəti günlər ərzində də yeni məlumatlar verildi, təfərrüatlar açıqlandı. Prezident yanında baş vermiş hadisə ilə bağlı xüsusi müşavirə keçirildi və müşavirənin gedişi cəmiyyətə təqdim olundu. Dünən cəmiyyətə açıqlanan sonuncu məlumatlar isə özündə daha çox təfərrüatı ehtiva etməklə terror aktının tərtibçiləri haqqında geniş detalları əks etdirir.

Əgər sırf kütləvi kommunikasiya prinsipləri və texnologiyaları baxımından yanaşsaq, qətiyyətlə deyirəm ki, baş vermiş hadisə haqqında cəmiyyətin belə ardıcıllıqla məlumatlandırılması daha məntiqi və daha doğrudur. Çünki söhbət Azərbaycan dövlətini vətəndaşların gözündə etibarsızlaşdırmağı, ölkədə sabitliyi pozmağı hədəfləyən, zəncirvari həlqələrə malik bir terror aktından və qruplaşmasından gedir. İstənilən cinayət, xüsusən də terror kimi ağır cinayətlərlə bağlı bütün təfərrüatlar dərhal bəlli olmur, bəlli olanda belə istintaq aparıldığı üçün bəzi nüansların açıqlanması məqbul sayılmır. Bunun qarşılığında terrorun media ayaqları həmişə çalışırlar ki, müxtəlif dezinformasiyalar yaymaqla, hakimiyyət orqanlarının hadisələri önləyə bilməməsi və guya ziddiyyətli açıqlamalar verməsi kimi tezisləri gündəmə gətirməklə dövlətlə vətəndaşlar arasında inamsızlıq yaratsınlar. Fəqət buna Azərbaycanda nail ola bilmədilər.

Lakin təəssüf ki, terror hadisəsinə münasibətdə açıqlamaların aktın açılan detallarına uyğun dinamikasını, üzə çıxan nüanslara uyğun şəkildə ardıcıl və operativ şəkildə cəmiyyətə çatdırılmasını rəsmi instansiyaların bir-birindən fərqli informasiya verilməsi kimi anlayanlar, daha dəqiqi, anlatmaq istəyənlər var. Necə təsəvvür edirsiz, istintaq aparılmadan, təkzib olunmaz sübutlara malik olmadan Gəncədəki terrorun beyin mərkəzində yer alan Tohid İbrahimbəyli ilə bağlı təfərrüatlar əldə edilə və ya açıqlana bilərdimi? Faktlar əldə edilmədən ilkin məlumat açıqlansaydı, onun himayə edən qüvvələrin reaksiyası necə olardı? Azərbaycan hüququn və hüquq-mühafizə sisteminin imici zərbə altında qalmazdımı?

Nəzərə almalıyıq ki, rəsmi açıqlamalar cəmiyyətin məlumatlandırmasına xidmət edir, çaşqınlıq və vahimə yaranmasına deyil. Bu isə o deməkdir ki, istintaq davam etdikcə, xüsusi xidmət orqanları yeni yeni məqamlar aşkarladıqca cəmiyyətə əlavə məlumatlar veriləcək və ictimaiyyət daha müfəssəl bilgilərə malik olacaq. Eyni zamanda, bu və ya digər səbəblərdən müəyyən məlumatlar cəmiyyətə hələlik təqdim edilməyə, məhkəmədə açıqlana bilər. Bir daha təkrar edirəm: söhbət şəxsi zəmində baş vermiş bir cinayətdən deyil, dövlətin sabitliyini təhdid edən, uzun müddət ərzində planlaşdırılmış, indi aydın olduğu qədər, propoqanda tərəfləri də işlənmiş ciddi təxribat faktından gedir. Odur ki, həmkarlarımızın da şərh və təhlillərində bir az diqqətli olmarında, düşünülmüş ideoloji təxribatın dəstəkçisi kimi çıxış etməməsində yarar var. Əlbəttə, bu dəstəyi düşünülmüş şəkildə vermirlərsə...

# Küçə siyasətçisi Paşinyanın Brüssel uğursuzluğu

***İnsanlar yenə də aldandılar. Ancaq bu, heç də təəccüb doğurmur. Çünki erməni xalqı "qondarma Dağlıq Qarabağ problemi" adı altında 30 ildir ki, Ermənistana rəhbərlik edən saxta prezidentlərin uğursuz siyasətlərinin qurbanına çevriliblər. İndi də, uşaq qatili Serj Sarkisyanı əvəz edən "küçə demokratı" Nikol Paşinyan adlı müxalif siyasətçi hakimiyyətə gələrək demokratiya vədi verdi, lakin bunun altından adi saqqallı radikal çıxdı. İndi erməni cəmiyyəti bu "saqqallı"dan canını qurtarmağa çalışır. Moskva da, hələlik, qıcıqlandığını ifadə edir. Elə bunların fonunda N.Paşinyan Brüsselə üz tutmağa qərar verdi. Elə zənn etdi ki, onu isti qarşılayacaqlar, istəyinə nail olacaq, ancaq Brüssel sammiti başa çatdı, Paşinyan "əli ətəyindən uzun" qayıtdı.***

Bu, belə də olmalı idi. Ekspertlərin gəldiyi qənaətə görə, bu günə kimi küçə adamı olan Paşinyan heç bir real, konkret və demokratik fikir irəli sürməyib: "Onun mülahizələri radikal küçə zorbaçısının fikirlərindən elə də fərqlənmir. Analitiklər indiyə qədər N.Paşinyanın elə bir fikrini nümunə gətirə bilmirlər ki, demokratiyaya, müasirliyə və səmərəli əməkdaşlığa səsləsin. Əksinə, onun artıq Rusiya kimi böyük bir dövlətin başçısını qıcıqlandırmağa başladığından bəhs edirlər. Praktiki olaraq, Ermənistanın xarici siyasətində Qərbə tərəf addım atdığını təsdiq edən bircə fakt belə yoxdur. Olması da gözlənilən deyil. Çünki Moskva dərhal öz "erməni çocuğu"nun qulağını dartar".

## Köhnə havanın davamçısı və yaxud Paşinyan Rusiyanın dəstəyini daha sürətlə itirir

Bu gün Ermənistanda vəziyyət günbəgün ağırlaşır. N.Paşinyan hakimiyyətə gəlməzdən əvvəl, küçədə pafoslu çıxışlar edirdi. İndi isə hakimiyyətdədir. Bu üç ay ərzində nə dəyişdi? Yenə də, S.Sarkisyanın dövründə olduğu kimi, söz! Lakin Paşinyan anlamır ki, real siyasət konkretlik və dəqiqlik tələb edir və Sarkisyan dövründə də, indi də Ermənistanın bütün siyasət sahəsinə Rusiya tam nəzarət edir. Məhz Moskvanın himayədarlığı sayəsində, formal da olsa, Ermənistan adlı dövlət xəritədə var. Belə bir ölkə Aİ ilə necə müstəqil əlaqələr qura bilər?

Ermənistanın əksər ekspertləri hesab edirlər ki, cəmiyyət "klan prinsipi" üzrə parçalanır. Eynilə Sarkisyan rejimi Paşinyan hakimiyyəti ilə üst-üstə düşür. Nəticədə, vəziyyət getdikcə bütün sahələrdə daha da kriminallaşır, Sarkisyanın qarşıdurma siyasəti Payinyan hakimiyyəti tərəfindən davam etdirilir. Eyni şeyləri xarici siyasət barədə də demək olar. Məhz xarici siyasət sahəsində Ermənistanda getdikcə daha ağrılı bir durumun yarandığı özünü göstərir. Bu, Paşinyanın Brüssel səfəri fonunda özünü daha aydın göstərdi.



## Brüssel görüşündə Paşinyanın yeri qapının dalı oldu

Məsələ burasındadır ki, Rusiyadan üz döndərməklə, Paşinyan elə zənn etdi ki, Qərb onu bağrına basıb, hər deydiyinə "hə" cavabı verəcək, ancaq tamam başqa mənzərə ilə üzləşdi. Paşinyan hakimiyyətə yeni gəldiyi zaman ölkədə yeni seçkilər keçirmək üçün Avropadan maliyyə yardımı istəsə də, burada küçə "demokratı"na, necə deyərlər, qapının dalını göstərdilər. Eyni mənzərə ilə Paşinyan Brüssel səfərində də üzləşdi. Paşinyan burada Ermənistana demokratiya gətirən şəxs kimi böyük izzət və ehtiramla qarşılanacağını gözləsə də, tamam fərqli proseslər baş verdi. Onun Brüsseldə görüşdüyü ən yüksək ranqlı məmur Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Federika Mogerini oldu. Daha Paşinyan və onu səfərdə təmsil edən komanda üzvlərindən kimsə Avropa İttifaqının hansısa yüksək təmsilçisi ilə görüş imkanı qazanmadı. Brüsseldə Paşinyana işğal altında olan Qarabağ məsələsi ilə bağlı, belə demək olarsa, bir qulaqburması da verildi. Məsələn, Avropa İttifaqı bildirdi ki, tərəflərin Minsk Qrupu həmsədrlərinin himayəsilə danışıqlar prosesində ilkin şərtlər olmadan tam şəkildə iştirak etmələri olduqca vacibdir. Bununla da qurum Dağlıq Qarabağ danışıqlarında Ermənistanın separatçı rejimi daxil etmək istəyinə qarşı olduğunu göstərdi. Ən vacib bir məqam isə, Avropa İttifaqı və Azərbaycan arasında imzalanan Tərəfdaşlıq Prioritetləri Sənədində Avropa İttifaqı tərəfindən növbəti dəfə Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə dəstək ifadə olunması oldu.

## "Azərbaycanın Moskvadan dəstək alması üçün böyük şansları yaranıb"

Bu arada, Rusiyanın tanınmış politoloqları və ekspertləri də bu məsələ ətrafında Ermənistanın özünə siyasi məzar qazdığını bildirirlər. Məsələ ondadır ki, rus politoloqlar Bakının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Rusiyadan ciddi dəstək alacağını proqnozlaşdırırlar. Bu barədə ölkədə fəaliyyət göstərən rusdilli saytların birinə açıqlama verən "Rusiyanın cənubunun analitikası" ("Analitika yuqa Rossii"-red.) siyasi-ictimai qəzetinin baş redaktoru, tanınmış konfliktoloq Yevgeni Mixaylov danışıb: "Mənim fikrimcə, sözdə dost Ermənistandan fərqli olaraq, Azərbaycanın Moskvadan dəstək alması üçün böyük şansları yaranıb". Yevgeni Mixaylova görə, Azərbaycanın qətiyyətli mövqeyi diqqətəlayiqdir: "Azərbaycan Ermənistandan fərqli olaraq, özünü daha diplomatik və səbirli aparır, hansı ki, bu məsələni kimsənin qərarından asılı olmayaraq, hərbi yolla həll edə bilərdi. Bakı qarantların fikirlərinə hörmət edir, lakin bu səbrin sonu da ola bilər. Bunu hər kəs başa düşür, o cümlədən, Rusiya da".

Beləliklə, Brüssel səfərinin nəticələrini Aİ-nin Azərbaycana və Ermənistana münasibəti prizmasından təhlil etdikdə görürük ki, Azərbaycan Prezidenti yüksək səviyyədə qarşılandı, nəzərdə tutulmuş bütün məsələlər uğurla həll olundu. İstər Aİ ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin inkişaf etdirilməsi, istər Dağlıq Qarabağ münaqişəsinin həlli baxımından, istərsə də digər məsələlərdə Avropa İttifaqı rəsmiləri Azərbaycanda və Azərbaycan Prezidentinə yüksək hörmət, etimad və böyük diqqət nümayiş etdirdilər. Azərbaycan əhəmiyyətli ölkə və söz sahibi kimi bir daha özünü təsdiq etdi.

Ermənistanın baş naziri Nikol Paşinyan isə Brüssel səfərindən məyus və əliboş qayıtdı. Paşinyan inqilabın lideri kimi Avropa İttifaqından və Aİ rəsmilərindən özünə və ölkəsinə qarşı böyük diqqət gözləsə də, bu, baş vermədi. Ermənistan mediasının yazdığı kimi, nə qırmızı xalçalar sərildi, nə də Paşinyan təntənəli şəkildə alqışlarla qarşılandı. Ən əsas məqam isə, Paşinyanın Ermənistanla Azərbaycan arasında danışıqlar prosesinə Dağlıq Qarabağın separatçı rejimini cəlb etmək cəhdləri iflasa uğradı. Avropa İttifaqı açıq şəkildə bəyan etdi ki, danışıqlar prosesi heç bir şərt qoyulmadan davam etdirilməlidir. Diqqətçəkən digər məqam isə, Paşinyanın ermənilərə xas olan dilənçilik siyasətinin də uğursuzluqla sonuclanması oldu. Belə ki, Paşinyan Brüsselə səfəri zamanı ciddi-cəhdlə Aİ-dən 70-80 milyon avro pul almaqla tez-tələsik seçkilər keçirib, məsələni tez həll etmək istəyirdi. Ancaq bu arzu da Paşinyanın ürəyində qaldı. Avropa İttifaqı açıq şəkildə bəyan etdi ki, belə bir vəsait yoxdur və Paşinyana, hələlik, islahatların nəticəsinin gözləndiyi bildirildi.

Beləliklə, Brüsselə səfəri güclü, özünə güvənli, prinsipial, böyük hörmət sahibi olan Azərbaycanın fonunda cılız, heç kimə lazım olmayan, olduqca zəif və dilənçi kökündə olan Ermənistanın obrazını açıq şəkildə bir daha nümayiş etdirdi.

***A.SƏMƏDOVA***

---

## Professor Akkan Suver: Azərbaycanda sabitliyin qorunması region ölkələri üçün həyati əhəmiyyət daşıyır



Son günlər Azərbaycanın Gəncə şəhərində baş verən xoşagəlməz hadisələr Türkiyədə böyük narahatlıqla qarşılanıb. Bu sözləri AZƏRTAC-a açıqlamasında Türkiyənin Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri, professor Akkan Suver deyib. A.Suver əminliyini ifadə edərək bildirib ki, törədilən cinayətlərin bədxah xarici qüvvələr tərəfindən planlaşdırıldığı inkarolunmazdır. "Təəssüf ki, bu qüvvələr zaman-zaman Azərbaycanın müstəqilliyinin qorunmasına, dövlətin qüdrətlənməsinə, dünyadakı mövqelərinin güclənməsinə qısqanclıqla yanaşıblar. Azərbaycan bütövlükdə Qafqaz bölgəsində sabitliyin qorunmasında həlledici təsirə malikdir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli bu bölgədə uzunmüddətli sülhə təkan verə biləcək mühüm amildir. Yaxşı olar ki, Azərbaycanda sabitliyi pozmaq istəyən qüvvələr öz imkanlarından istifadə edərək işğalçı Ermənistandan zəbt etdiyi Azərbaycan torpaqlarından geri çəkilməyi tələb etsinlər. Bu, regiondakı bütün ölkələr üçün düzgün və əhəmiyyətli yoldur. Azərbaycanda sabitliyin qorunması region ölkələri, o cümlədən Türkiyə üçün həyati əhəmiyyət daşıyır", - deyə A.Suver əlavə edib.

## Fazil Mustafa: "Xurafatı dəstəkləyən təzahürləri ortadan qaldırmalıyıq"



"Gəncə hadisələri Azərbaycan dövlətinə qarşı çevrilən xüsusi məsləhətli və əvvəlcədən planlaşdırılan iğtişaşa niyyətli bir aksiyadır. Artıq hər kəsə məlumdur ki, baş verənlər bilavasitə kənar qüvvələrin Gəncə üzərindən Azərbaycan dövlətinə qarşı müəyyən təxribatları gerçəkləşdirmək hərəkətidir". Bu fikirləri SİA-ya açıqlamasında millət vəkili Fazil Mustafa deyib. Deputatın sözlərinə görə, bir qrup insanlar var ki, xaricdə hazırlanaraq cəmiyyətin içərisində yerləşdirilib: "Həmin şəxslər din adı ilə zorakılığı, dinə zidd olan əməlləri təbliğ etməklə məşğuldurlar. Bu istiqamətdə xarici ölkələrin həm saytları, həm ayrı-ayrı mütəxəssisləri ciddi işlər görürlər. Onlar cəmiyyətin içərisinə islam dininin təbliğatçıları, onun pərəstişkarları adı altında müəyyən mövhumat elementlərinin daşıyıcısı olan, tamamilə başqa ideologiyanı mənimsəmiş insanların yerləşdirilməsini təmin edirlər".

Millət vəkili bildirib ki, Gəncədə həm icra başçısına, həm də polislərə qarşı həyata keçirilən açıq-aşkar qətliam onu göstərdi ki, bu ünsürlərə qarşı ciddi mübarizə aparılmalıdır: "Əks halda dünyəvi dövlət modelimizi ciddi şəkildə təhlükə altına ala bilərlər. Bizim bu məsələdə prinsipal mövqeyimiz budur ki, bu cür hadisələrin təkrarlanmaması üçün indidən bu cür radikal görüşlərə malik qüvvələrin zərərsizləşdirilməsinə daha ciddi yanaşmalıyıq". F.Mustafa qeyd edib ki, radikal görüşlərə malik qüvvələrə qarşı mübarizə maarifçilik, hüquq-mühafizə orqanlarının sərt addımları ilə aparılmalıdır: "Bu məsələlərdə televiziyaların, media orqanlarının üzərinə böyük yük düşür. Artıq hər hansı bir şəkildə xurafatı dəstəkləyən, təbliğ edən bütün təzahürləri ortadan qaldırmalıyıq".

---

# Tvinninq layihəsi ölkəmizdə uğurla reallaşdırılır

Avropa İttifaqının Tvinninq proqramı çərçivəsində Təhsil Nazirliyi tərəfindən həyata keçirilən "Azərbaycanda ali təhsilin gücləndirilməsinə dəstək" layihəsinin İdarəetmə Komitəsinin birinci iclası olub. Təhsil Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, iclasda Fransa, Litva və Latviyadan olan layihə rəhbərləri ilə yanaşı, həmin ölkələrin ali təhsil üzrə ekspertləri də iştirak ediblər. Təhsil Nazirliyinin Aparat rəhbərinin müavini Yaqub Piriyev layihənin əhəmiyyətindən danışaraq, qarşıda duran vəzifələri diqqətə çatdırıb.

Sonra layihənin Azərbaycan üzrə rəhbəri, Təhsil Nazirliyinin elm, ali və orta ixtisas təhsili şöbəsinin müdir müavini Şahin Bayramov layihənin ölkəmizin ali təhsilinə verəcək töhfələrdən bəhs edib, layihə sayəsində ali təhsil sisteminin Avropa ali təhsil məkanına daha da uyğunlaşacağına inamını vurğulayıb.

Tədbirdə layihənin Fransadan olan rəhbəri, Fransanın Beynəlxalq Pedaqoji Araşdırmalar Mərkəzinin əməkdaşı Bruno Kurval, Litvadan olan layihə rəhbəri, Litvanın təhsil nazirinin müavini Giedrius Viliunas və Latviyadan olan rəhbəri, Latviyanın Akademik Məlumat Mərkəzinin rəhbəri Ramina Baiba çıxış ediblər. Birinci rübdə görülən işlərlə bağlı məlumat verilib, növbəti rüb ərzində planlaşdırılan tədbirlər diqqətə çatdırılıb. Sonda komitə üzvləri tərəfindən növbəti iclasın noyabr ayında keçirilməsi ilə bağlı qərar qəbul edilib.

# Biləsuvar ağsaqqalları Gəncə hadisələrindən danışdılar



***Dünən YAP Biləsuvar rayon təşkilatının akt zalında Gəncə hadisələri ilə əlaqədar Biləsuvar ağsaqqalları ilə gənclərin görüşü keçirildi.***

Görüşü giriş sözü ilə açan YAP Biləsuvar rayon təşkilatının sədri Kamil Mirzəyev bildirdi ki, iyulun 10-da saat 20.00 radələrində 150-200 nəfərdən ibarət radikal dini yönümlü şəxslərin Gəncə şəhərində meydana toplaşaraq, asayişi kobud şəkildə pozmaq cəhdi və iki polis zabitinin qətlə yetirilməsi insanlığa sığmayan cinayət və dövlətçiliyimizə qarşı yönəlmiş təxribatdır: “Bu hadisə ölkəmizin bütün vətəndaşlarını hiddətləndirdiyi kimi, Biləsuvar rayon əhalisinin də hiddətinə səbəb olmuşdur. Əslində, bu hadisə xarici qüvvələr tərəfindən maliyyələşdirilən, eyni zamanda, daxildə onlara rəvac verən qrupların işidir. Belə radikal qüvvələr heç vaxt müstəqilliyimizi sarsıda bilməz”. Natiq əminliklə bildirdi ki, biləsuvarlılar-qadınlar, ağsaqqallar, ziyalılar və biləsuvarlı gənclər həmişə belə radikal qüvvəllərlə mübarizə aparmış və bundan sonra da ölkə Prezidenti Cənab İlham Əliyevin ətrafında sıx birləşərək, dövlətçiliyimizin qorunmasına xidmət edəcəklər. Tədbirdə Biləsuvar rayon Ağsaqqallar Şurasının sədri Əvəz Miriyev çıxış edərək, biləsuvarlı gəncləri radikal dini cərəyanlara qoşulmamağa və müstəqillik yolunda əzimlə mübarizə aparmağa çağırdı.

Tədbirdə Biləsuvar rayon Gənclər və İdman İdarəsinin rəisi, YAP Biləsuvar rayon təşkilatı gənclər birliyinin sədri Aqşin Bağırov çıxış edərək, bildirdi ki, biləsuvarlı gənclər həmişə dövlətə və dövlətçiliyə sədaqətləri ilə seçiliblər: “Gəncə hadisələrinə də biganə qalmayn biləsuvarlı gənclər sosial şəbəkələrdə fəal iştirak edərək, dövlətçiliyimizə zərər vermək istəyən radikal qüvvələrə qarşı mübarizə apararaq, öz sədaqətlərini sübut edirlər”.

Tədbirdə rayon Ağsaqqallar Şurasının üzvlərindən Akif Kazımov, Əvəz Ağayev, Rüstəm Əliyev, Məhərrəməli Kazımov və başqaları çıxış edərək, gənclərə öz dəyərli tövsiyələrini verdilər. Tədbirdə biləsuvarlı gənclərdən Rabil Şahbazov, Aqil Bəşirov, Elşən Ağazadə və başqaları çıxış edərək, biləsuvarlı gənclərin ölkə Prezidenti İlham Əliyevin ətrafında sıx birləşdiyini və radikal müxalif qüvvələrə qarşı əzmlə mübarizə aparacaqlarını bildirdilər.

***RÖVŞƏN***

# Mehdi Balabəyov: “Qətiyyətimizi ortaya qoyacağıq”



***“Heç bir təxribatçı qüvvə Azərbaycanda mövcud olan sabitliyi poza bilməyəcək”. Bu fikirləri Yeni Azərbaycan Partiyası Şabran rayon təşkilatının sədri Mehdi Balabəyov radikal dini qrupların təxribatçı və terrorçu əməllərinin ifşasına münasibətini bildirərkən deyib.***

“Gəncədə baş verən hadisələr və Sumqayıtda radikal dindarların, eləcə də müxalifət üzvlərinin həbs edilməsi hüquq-mühafizə orqanlarının keçirdikləri uğurlu əməliyyatların məntiqi göstəricisidir”, - deyə qeyd edən Mehdi Balabəyov bildirib ki, bundan sonra da heç bir təxribatçı qüvvə öz məkrli planlarını gerçəkləşdirə bilməyəcək: “Belə ki, Azərbaycanda xalq-dövlət birliyi möhkəm təməllərə əsaslanıb və bu təməlz xələl vurmaq mümkün deyil. Cənab Prezident İlham Əliyev keçirdiyi son müşavirələrində də vurğulayıb ki, bu gün xalqımız öz dövlətinin ətrafında sıx birləşib və bu birliyi pozmağa çalışan daxili və xarici düşmənlər öz layiqli cəzalarını alıblar, bundan sonra da alacaqlar. Azərbaycanın dünyada tərəqqi etməsi, nüfuz qazanması, əlbəttə ki, bizi istəməyən bəzi dairələri narahat edir və həmin dairələr zaman-zaman bu cür cəhdlər etsələr də, məğlub olurlar”.

YAP Şabran rayon təşkilatının sədri, eyni zamanda, vurğulayıb ki, ölkəmizdə mövcud olan dini tolerantlıq, multikultural dəyərlər tarixlər boyu formalaşıb və digər ölkələrə nümunə olaraq göstərilib. Bu baxımdan, radikal dindarların dini özləri üçün alət etmələri, ondan sui-istifadə edərək, dövlətçiliyimizə qarşı istifadə etmək cəhdləri baş tutmayacaq: “Bu cəhdlərin qarşısını hüquq-mühafizə orqanları ilə yanaşı, xalq da alır. Dövlətçilik maraqlarımız hər şeydən üstündür və xalqımız da bunu yaxşı anlayır. Əgər kimlərsə bunu anlamırlarsa, dərk etmirlərsə, qanunun sərt üzü ilə qarşılaşmalı olacaqlar. Bunu dövlət başçımız da öz çıxışında qətiyyətlə vurğulayıb. Ona görə də, əminik ki, Gəncədə iki polis zabitimizi vəhşicəsinə qətlə yetirənlər, sosial şəbəkələrdə itaətsizliyə çağırış edənlər, Sumqayıtda və başqa şəhərlərimizdə qarşıdurma, xaos və anarxiya yaratmaq istəyənlər qanunun sərt tərəfini görəcəklər”. “Artıq Azərbaycanı istəməyən qüvvələr də anlamağa məhkumdurlar ki, onların bu planları da baş tutmadı”-deyə qeyd edən Mehdi Balabəyov hər bir azərbaycanlının qətiyyətli mövqe ortaya qoyaraq, dövlət qarşısında vətəndaşlıq borcundan layiqincə çıxdığını bildirib: “Bizlər, məhz Prezident İlham Əliyev siyasətinin ətrafında birləşərək, Azərbaycanımızı inkişaf etdirib, qaranlıq və mənfur qüvvələrin məhv olunmasında qətiyyətimizi ortaya qoyacağıq”.

***Rəfiqə KAMALQIZI***

# “Gəncə hadisələri müxtəlif xarici mərkəzlərdən idarə olunan təxribatdır”

“Cənab Prezident İlham Əliyevin Gəncə hadisələri ilə bağlı hüquq-mühafizə orqanlarının rəhbərləri ilə keçirdiyi iclasdakı kəskin mövqeyi bir daha sübut etdi ki, müstəqil Azərbaycanın dövlət maraqlarına əl uzadanlar üçün heç bir güzəşt olmayacaq. Qanunla ən sərt formada terrorçularla, ölkənin sabitliyini pozmağa cəhd edənlərlə, cəmiyyətdə qorxu, xof yaratmağa cəhd edənlərlə davranılacaq”. Bunu SİA-ya açıqlamasında Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının (BAXCP) sədr müavini Niyaməddin Orduxanlı deyib.



Onun sözlərinə görə, ölkə rəhbərliyi də açıq şəkildə bildirdi ki, baş vermiş Gəncə hadisələri müxtəlif xarici mərkəzlərdən idarə olunan bir təxribatdır: “Birmənalı şəkildə Azərbaycan cəmiyyəti də bu cür təxribatları pislədi. Xalq çox gözəl bilir ki, ölkənin sabitliyi toxunulmazdır. Bunu etmək istəyən qüvvələr öz çirkin məqsədlərini həyata keçirmək niyyətindədir. İndiki mərhələdə hər kəs baş vermiş hadisəyə həssas yanaşmalıdır. Xüsusi məmur təbəqəsi imkan verməməlidir ki, dövlət maraqlarımızı sevməyən bir qrup daxili satqınlarla birləşib, təxribat yaysınlar. Görürsünüz ki, aparılan kampaniya əsasən məmurların fəaliyyəti ilə bağlıdır. Bütün hallarda cənab Prezidentin məmurlara hər zaman tapşırıqları o olub ki, xalqın xidmətçisi olun. Özünüzü əlahəddə status sahib kimi aparmayın. Özbaşınalığa yol vermək olmaz. Korrupsiyaya, rüşvətxorluğa imkan verilməməlidir.

Xalq hər zaman görür ki, Prezidentin bütün müşavirələrdə məmurların qarşısına qoyduğu bir nömrəli tapşırıqlar bu olur. Xalq çox yaxşı bilir ki, bu gün ölkədə ən çox problemlərdən danışan da məhz Prezident İlham Əliyevdir. Haradakı problemlərimiz var və bu problemlərin aradan qaldırılmasının həlli üçün çalışan da dövlət başçısıdır. İlham Əliyev bütün imkanlarını səfərbər edir ki, ölkəmizin üzləşdiyi mövcud problem aradan qaldırsın. Bütün məmurlar da yerlərdə problemlərin həllinə çalışmalıdır. Bu gün dövlət strukturlarında çalışan məmurlar daha məsuliyyətli olmalıdır, vətəndaşlarla intensiv görüşlər keçirməlidir. Hər bir vətəndaşın hüquqlarını qorumalıdır. İmkan verilməməlidir ki, təxribatçı şəxslər nədənsə istifadə etsin. Gəncə İcra hakimiyyətinin başçısı Elmar Vəliyevə qarşı törədilən hadisə bir başa terrordur. Xalqımız da qorxu hissini yaşatmaq arzusundadırlar. Din adı altında cəmiyyətdə xaos yaratmağa cəhd edirlər. Ancaq heç nəyə nail olmayacaqlar. Hər kəs bilməlidir ki, dövlətimizin maraqlarını qorumaq bizim şərəf işimizdir. Kimsə də bizim dövlət maraqlarımıza əl uzadacaqsa, onların kökünü kəsmək lazımdır. Bunu da xalq edəcək”.



# Qəbahəti böyük olan İsa Qəmbər...

**RƏFİQƏ**

***Müsavatın qurultay keçirməsi də, deyəsən, bəlalı olacaq. Ona görə bəlalı deyirəm ki, bir tərəfdən, hətta illərdir başqan olduğu müsavatçılar qarşısında, bir tərəfdən də, bu xalq və bu millət qarşısında günahların o qədər böyükdür ki...***

Ancaq məsələ ondadır ki, İ.Qəmbər, həmişə olduğu kimi, indi də “qara məni basınca, mən qaranı basım” iyrənc ideyası ilə mövcud günahlarını boynuna almır. Elə götürək, Arif Hacılını saxta seçkilər vasitəsilə Müsavata başqan gətirməsini etiraf etməməsini. Bu gün partiyanın qurulmasında xidmətləri olmuş əsas adamlar onun səhvləri nəticəsində, ya digər partiyalardadırlar, ya öz partiyalarını qurublar, ya da, ümumiyyətlə, siyasi səhnəni tərk ediblər. O, yenə də tərslik edərək, etiraf etmir ki, o, bu gün də partiyaya kölgə başqanlığı edir. Etiraf etmir ki, “MSDM”i yaradarkən, bunu siyasi-ictimai maraqlar üçün deyil, şəxsi maraqları üçün təsis edib ki, növbəti seçkilərdə iştirak etsin. Ancaq İsa Qəmbər yenə də tərslik edərək, bunu etiraf etmir ki, etmir...

Hələ 2015-ci ilin parlament seçkiləri ərəfəsində prosesə qatılmaq üçün Müsavat partiyasından namizədliyini irəli sürərkən, İ.Qəmbər bəyan etmişdi ki, Müsavat daxilində gedən proseslərə rəğmən, bu mübarizə iqtidarla Müsavat arasında olan məsələdir. Nə qədər məntiqsizlik və gülünc düşüncə. Əgər xatırlayırsınızsa, həmin ərəfədə Müsavat partiyası dağılmağa, parçalanmağa və məhv olaraq deqradasiyaya uğramağa başlayırdı, İ.Qəmbər isə bütün günahları atırdı iqtidarın üzərinə ki, sən demə, oradakı narazılar hakimiyyətə işləyirmiş. Yəni o, Müsavatda avtoritar rejimi qoruyub-saxlamaq üçün, hətta ən aparıcı şəxslərin istefalarına göz yumur, səhvini isə yenə də boynuna almır, əsas günahlarını da atır yenə də hakimiyyətin üzərinə.

## İsa Qəmbər Müsavatı parçalayanların ən zırpısıdır

Məgər İ.Qəmbərin qəbahətləri bununla bitir? Demə, hakimiyyətə qarşı radikallıqları ilə seçilən sabiq müsavatçılar - Səxavət Əlisoy, Hikmət Hacızadə, Əlövsət Talışxanlı, Vurğun Əyyub, Qubad İbadoğlu və başqaları hələ o vaxtlar narazılar qrupunda yer alarkən, hakimiyyətlə iş birliyi quraraq, Müsavatı parçalamaq yolunu tutublarmış. Çox gülməli və gülməli olduğu qədər də partiyanın acınacaqlı vəziyyətə düşməsinin bariz göstəricisidir. Çünki reallıqda İ.Qəmbər Müsavatı parçalayanlardan ən yekəsi, ən nəhəngi, ən böyüyü, ən zırpısıdır özüdür və bunu deməyə cürəti də çatmır.

Bu gün İ.Qəmbər, formal olaraq, Müsavatın rəhbəri olmasa da, qeyri-formal qaydada A.Hacılını və onun tayfa komandasını idarə edir. Bununla yanaşı, Müsavatdan istefa verənlərin çoxu da İ.Qəmbərdən də artıq müsavatçılardır desək, heç də yanılmarıq. Bu qədər qəbahətləri olan İ.Qəmbər, yaxşı olardı ki, 2018-ci ilə təyin edilən Müsavatın qurultayına qədər özünü hazırlamaqdansa, cürət tapıb, bircə dəfə partiyadan çıxan partiyadaşlarına etiraf etsin ki, A.Hacılının saxta başqan olmasında günahları böyükdür. Yox, əgər belə etmirsə, buna cürəti çatmırsa, onda özü kimi ağılsız ifadələrini özündə saxlasın və siyasətdən üzüsulu tərzdə ayrılsın. Elə, məncə də, İ.Qəmbər siyasətdən üzüsulu getsə yaxşıdır...

# Azərbaycana qarşı "hibrid müharibə"

***Gəncə hadisələri Azərbaycan dövlətçiliyinə qarşı yönəldilmiş təxribat kimi dəyərləndirilir və buna başqa heç bir ad qoymaq olmaz. Özü də bu təxribatın, bu terrorun təkcə soyuq və odlu silahla yox, həm də bunlardan daha dəhşətli olan, kütləvi təsirə malik informasiya silahı ilə həyata keçirilməsi təhlükəlilik dərəcəsini daha da artırır. Ən təəssüf doğuran məqam isə, ondan ibarətdir ki, radikallar təxribatları din pərdəsi altında həyata keçirməyə can atırlar və bu yolda bəzi informasiya dəstəyindən istifadə etməkdən də çəkinmirlər. Gəncədəki təxribatın ilk andan etibarən müxtəlif istiqamətdən, radikal şiə ideologiyalı, eyni zamanda, din pərdəsi altında ekstremizmə meyilli saytlar, feysbuk səhifələri və profilləri, youtube kanalları tərəfindən aktiv informasiya dəstəyilə müşayiət olunması, xaricdəki radikal şiə mərkəzlərinə bağlı olduğuna heç bir şübhə yeri qoymur və əslində, heç özləri də bunu gizlətmirlər. Heç bir tərəddüd etmədən, açıq şəkildə də nümayiş etdirirlər və bu da, öz növbəsində, təsdiq edir ki, bütün bunlar xarici maraqlara xidmət edir.***

Xaricdə yaşayan, özünü mühacir kimi qələmə verən qruplaşmanın da Gəncə hadisələrini dəstəkləməsi, terrorçuların tərəfini saxlaması, onları qəhrəmana çevirmək üçün hay-küy qoparması, faciənin günahını isə dövlətin üzərinə yıxmaq cəhdləri deyilənləri bir daha təsdiq edir və onların da əvvəlkilərdən heç bir fərqinin olmadığını göstərir. Belə ünsürlər haqqında cəmiyyət daha çox məlumata malikdir və ictimaiyyət onların, hər bir mənada, hardan qidalandığını yaxşı bilir. Bilir ki, həmin şəbəkə həm Qərbdəki bəzi çevrələrdən maliyyələşir, həm də onların erməni lobbisi ilə əlaqələri də mövcuddur. Təsdiqedici faktlar çoxdur və bu zamana qədər ictimaiyyət yetərincə bu barədə məlumatlarla təmin olunub və indi sadalananlar kimsə üçün sirr də deyil.

Azərbaycandakı terrorun informasiya dəstəyi müxtəlif istiqamətlərdən gəlirsə də, mənbələr fərqlidirsə də, maraqlar eynidir. "İlk baxışdan tamamilə fərqli maraqlara malik olduqları görünən qruplardır" belə eyni nəticə ümidindədirlər. Yeganə bir məsələdə onların hamısının maraqları üst-üstə düşür. Həmin maraq isə Azərbaycandakı sabitliyi pozmaq və dövlətimizi zəiflətməkdir. Azərbaycanda olan inkişafı gözü götürməyənlərin bu tərəqqinin qarşısını almaq cəhdləridir. Ölkəmizin söz sahibi olmasını, hər bir sahədə əldə etdiyi nailiyyətləri, uğurları, bir sözlə, qüdrətini həzm edə bilməyənlərin çirkin oyunlarıdır ki, təxribat və terror şəklində özünü büruzə verir.

### "Hibrid müharibə" zamanı heç bir dövlətə savaş elan olunmasa da, məqsəd dövləti çökdürməkdir

Əgər Azərbaycanda, eyni zamanda, həm aksiya təyin olunur, həm əhali itaətsizliyə çağırılır, həm terror törədilir, həm də bütün bunlar geniş, çoxşaxəli informasiya dəstəyilə təmin olunursa, bu, açıq-aşkar "hibrid müharibə"dir. "Hibrid müharibə" zamanı da heç bir dövlətə savaş elan olunmur, hərbi zərbə endirilmir, amma eynilə bu cür vasitələrlə onu çökdürməyə, ziyan vurmağa çalışılır. Mübarizənin formasından asılı olmayaraq, əgər məqsəd dövlətin zərərinədirsə, bu, düşmənçilikdir. Dövlətin maraqlarına toxunan hər hansı bir aksiya, hər hansı bir plan qəbuledilməzdir və bununla barışmaq olmaz.

Azərbaycan vətəndaşı ölkəsinə qarşı hansı əməliyyat aparıldığının fərqində olmalıdır. Fərqində olmalıdır ki, bu əməliyyatlara, nəinki alət olmasın, hətta onun qarşısının alınmasına səy və bacarıqlarını da əsirgəməsin. Hər bir Azərbaycan vətəndaşı bilməlidir ki, törədilən təxribat, terror, hətta aparılan informasiya müharibəsi belə ölkə əleyhinə hesablanıb və nəticə heç də ölkə vətəndaşlarının mənafeyi üçün nəzərdə tutulmayıb, əksinə, dövlətə ziyan vurulması üçün nəzərdə tutulub. Vətəndaşlıq borcunu, vəzifəsini dərk edən hər bir azərbaycanlı bunun fərqində olmalı və hər hansı bir şəkildə mübarizəyə qalxmalıdır.

Qeyd olunan "Hibrid müharibə" zamanı ən vacib olanı informasiya hücumlarının qarşısını kəsməkdir. Çünki həssas məqamlarda kütlə emosional davranarsa, özü də bilmədən bəzi qrupların məqsədli şəkildə yaydıqları dezinformasiyaların və qurduğu oyunların təsirinə düşə bilər. Kütlənin təsirə düşdüyü həmin məqamda isə yalan, yaxud doğru olmasından asılı olmayaraq, xəbərlər və kütlənin hisslərini qıcıqlandıran fikirlər ildırım sürətilə yayıla, onları nəzarətdən çıxara bilər. Nəticə isə, heç də arzuolunan ola bilməz və heç bir müsbət sonluq vəd etmir. "Ərəb baharı" adlandırılan siyasi çevrilişlər belə, məhz bu effektdən istifadə olunaraq bir vaxtlar Yaxın Şərq ölkələrində tətbiq edilib və bütün dünya ictimaiyyətinə ən xırda detallarına qədər bəllidir.



### Azərbaycan dövlətini, dövlətçiliyini qorumaq ölkə vətəndaşının ən vacib işinə çevrilməlidir

Yalan xəbərlər yayan, əhalini itaətsizliyə, qanunu pozmağa, terrora dəstək olmağa çağıran hər kəs nəzarətə götürülməli, hətta cəzalandırılmalıdır və bu məqamlarda hibrid hücumların qarşısını almaq üçün dövlətlə yanaşı, vətəndaşlar da səy göstərməlidir. Hər kəs vətəndaşlıq məsuliyyətini ortaya qoymalı, fərdi qaydada mübarizəyə qalxmalıdır. Azərbaycan dövlətini və dövlətçiliyini qorumaq ölkə vətəndaşının ən vacib işinə çevrilməlidir.

İndi nəinki bəzi üzdəniraq xəbər saytları, hətta sosial şəbəkələrdə mənbəyi bəlli olmayan profillərin informasiya hücumları heç də yenilik deyil. Bəzən insanların hissi ilə oynayan çağırışlar, dövlətinin və xalqının mənafeyini müdafiə edənlərin isə, təhqir olunması faktı ilə rast gəlmək olur. İlk baxışdan belə bu səhifələrin və profillərin mənbəyinin xaricdən olduğu asanlıqla hiss olunur. Lakin bu səhifələrin, bu profillərin təsiri altına insanların düşə biləcəyi də istisna edilə bilməz. Məhz bu baxımdan, ölkənin media strukturlarından tutmuş sosial şəbəkə istifadəçilərinə qədər hər kəs bu informasiya müharibəsində antiazərbaycançı qüvvələrlə bu və ya digər formada mübarizəyə qalxmalıdır, öz vətəndaşlıq mövqeyini ortaya qoymalıdır. Ortaya qoymalıdır ki, ölkəmiz əleyhinə fəaliyyət göstərən xarici qüvvələrdən tutmuş, onlara satılan sapı özümüzdən olanlara kimi hər kəs vətəndaş həmrəyliyindən özləri sarsılsın.

Azərbaycan elə bir zəif, gücsüz dövlət deyil ki, hər sosial şəbəkə istifadəçisi, yaxud xəbər saytının, eləcə də xaricdə erməni lobbisinin maliyyə vəsaitlərinə şirniklənən qrupun fəaliyyətindən sarsıla. Ölkəmizin təhlükəsizliyi diqqət mərkəzindən kənarda deyil ki, hər yoldan ötən, hər cinayətkar, hər terrorçu ölkədə at oynada. Faktlar sübut edir ki, Azərbaycanda qarmaqarışıqlıq salmağa hər hansı cəhdin qarşısı vaxtında və layiqincə alınıb və bundan sonra alınacağı da şübhə doğura bilməz. Lakin bizim bir vətəndaş olaraq üzərimizə düşən bu qüvvələrlə, bu çirkin əməllərin sahibləri ilə, onlara rəvac verənlərlə mübarizə aparmaqdır ki, bu ölkə vətəndaşının vətəndaşlıq borcu və məsuliyyətidir.

***İnam HACIYEV***

# Əli Kərimli terrorçu xislətini ortaya qoyub

***Məlum faktdır ki, AXCP sədri Əli Kərimli və onun zombiləşmiş mobil dəstəsi Azərbaycan siyasətinin üfunət və şər istehsal edən məkanına çevrilib. Özünün müxalifətçi mandatını bir kənara ataraq, yalnız müxalifətdaxili intriqalarla məşğul olan Ə.Kərimli, iddialarını dəstəkləməyən hər kəsi hədəfə alır.***

Əslində, bu, heç də təəccüb doğurmur. Çünki terrora meyillilik AXCP sədrinin qanında var. Belə olmasaydı, eyni qanın daşıyıcısı olan Ə.Kərimlinin Fransada yaşayan əmisi oğlu İnqilab Kərimov "İŞİD" terrorçu təşkilatını Azərbaycana dəvət etməzdi. O zaman sual yaranır: Ə.Kərimlinin yaxınlarının terrorçu təşkilatlarla əməkdaşlıq əlaqələri nədən xəbər verir? Cavab bəllidir: əgər sabah Ə.Kərimlinin terrorçu təşkilatların koordinatoru olduğu deyilsə, təəccüblü görünməz. Çünki bu, o Ə.Kərimlidir ki, qrant xatirinə xaricdə güvəndiyi dostlarının arzularının yerinə yetirilməsi üçün hər bir alçaqlığa, satıb-satılmağa gedən fərddir. Bu baxımdan, heç şübhəsiz ki, Azərbaycanın inkişafına, ölkədə yaranmış siyasi sabitliyi pozmağa çalışan istənilən bir şəxs törətdiyi əməllərinə görə gec-tez cavab verməlidir.

### "Əli Kərimli həm də mənəvi terrorun xaç atasıdır"

Bu yerdə Ə.Kərimli AXCP-sinin zombi qrupunun "Yeni Müsavat" qəzetininbaş redaktoru Rauf Arifoğlunun ünvanına dediyi təhqir və hədyan dolu hücumu zamanı dediyi təhqirli sözləri yadıma düşdü. "Musavat.com" saytında yayımlanan və "Milli Şura"nın 20 Yanvar Günü Şəhidlər Xiyabanına ziyarətinin fotolarını əks etdirən "Əli Kərimli hərbçiləri də "axe-ce-pe-çi etdi" adlı yazı verilmişdi və həmin yazıdan sonra bir qrup AXCP üzvü sosial şəbəkələrdə "Yeni Müsavat"ı və onun baş redaktorunu təhqir etməyə başladı.



"Yeni Müsavat" qəzetinin baş redaktorunun birinci müavini Azər Ayxan açıqlamasında Ə.Kərimlinin çevrəsini və özünü tərbiyəsiz adlandıraraq, bildirib ki, AXCP sədri Azərbaycanda mənəvi terrorizmin xaç atasıdır: "Bu terrorbaşı xoşu gəlmədiyi adamları öz zombilərinə söydürür. Özü zamanında o qədər söyülüb, o qədər təhqir olunub ki, bu cür mənəvi terroru artıqlaması ilə dadıb deyə, görünür, içində bir kompleks yaranıb - özünü insanları söyməklə və söydürməklə sakitləşdirir. Bu adam görün nə qədər xəstə təfəkkürə sahibdir ki, tənqidə, irada söyüşlə, təhqirlə qarşılıq verir. Elə bir mühit yaradıb ki, kimsə bunun haqqında nəsə yazsa və desə, dərhal həmin adamı zombilərinin dili ilə söydürür. Əmisi oğlu İnqilab Kərimov bunun anonsunu bir neçə dəfə verib, zatən. Adlarını demokrat qoyan bu adamların demokratiyaya, söz azadlığına, fikir müxtəlifliyinə nə qədər təhlükə yaratdığı istər-istəməz nəzərə çarpır. Müxalifətdə satqınlıq, separatçılıq, liderinə xəyanət ənənəsini bu adam yaratdığı kimi, mətbuatın yazdıqlarına söyüşlə cavab vermək ənənəsinin də fundamentini AXCP sədri qoyub.

Göründüyü kimi, Azərbaycan dövlətinin əleyhinə həyata keçirilən bütün çirkinliklərin içindən Ə.Kərimli çıxır. Bu da, artıq heç kimə təəccüblü də görünmür. Çünki bu şəxs öz şəxsi maraqları naminə Azərbaycanın milli maraqlarını satmağa hazırdır. Ancaq Ə.Kərimli kimi kəslər bilməlidirlər ki, xalqın iqtidarla sarsılmaz birliyi bu cür zərərli ünsürlərin ayaq açıb yürüməlrinə, əsla, izn verməyəcək. Çünki xalq ilə iqtidarın həmrəyliyi, bir-birinə sıx bağlılığı sayəsində, bu gün Azərbaycan vətəndaşların rifah və təhlükəsizlik mühitində yaşadığı sabitlik adasına çevrilib. Məhz Azərbaycan dövlətinin və xalqının birliyini, sabitliyini pozmağa, iğtişaş törətməyə çalışan cinayətkar və anti-Azərbaycan qüvvələrin məkrli planları bir daha puç oldu.

***Rəfiqə HÜSEYNOVA***

# “Ən sərt tədbirlər görülməlidir”

## Təhmasib Novruzov: “Bu qüvvələr həm Qərbdə, həm Şimalda, həm də Cənubda ola bilər”

*- Təhmasib bəy, Gəncədə icra hakimiyyətinin başçısına qarşı edilən cinayət hadisəsindən sonra 2 polis zabiti də qətlə yetirildi. Bunu radikal dini cərəyanların ölkəmizdə ictimai-siyasi sabitliyi pozmaq, vətəndaş qarşıdurması yaratmaq üçün atdıqları pozucu addımlardan hesab etmək olarmı? Sizcə, onların arxasında hansı qüvvələr dayanır?*



**Müsahibimiz “Azadlıq Hərəkatçıları Birliyi”nin sədri Təhmasib Novruzovdur**

- Məncə, məsələ o qədər də sadə və bəsit bir məsələ deyil. Məqsəd Azərbaycanda qarşıdurma yaratmaqdan, ölkəni xaosa sürükləməkdən, ölkəmizin bu gün ən dəyərli neməti olan stabilliyi pozmaqdan ibarətdir. Ancaq əsas sual budur: Azərbaycanda bu xaosu kimlər arzulayır? Kimlər ölkənin sürətli inkişafına, əmin-amanlığına, firavanlığına zərbə vurmaq istəyirlər? Həm də nə üçün? Bundan çıxarları nədir? Məncə, bu suallar sadə görünsə də, cavabı haqqında ciddi düşünməli olduğumuz mürəkkəb suallardır. Şübhə etmirik ki, ölkəmizin peşəkar hüquq-mühafizə orqanları, xüsusi xidmət təşkilatları tezliklə bu sualların cavabının ortaya qoyulmasına nail olacaqlar. İndilikdə isə, baş verən son hadisələrin təhlili qəti olaraq, onu deməyə əsas verir ki, Azərbaycanın üzərinə yenidən qara buludlar sığlaşmaqdadır. Həmişə belə olub: ölkəmiz ciddi nailiyyətlərə imza atan kimi müəyyən qüvvələr fəallaşmağa, Azərbaycanın uğurlarına mane olmağa çalışıblar. 1994-cü ildə “Əsrin Müqaviləsi” imzalandıqdan dərhal sonra baş verən olayları xatırlayaq. O zaman da, məhz ölkəmizi qarışdırmağa, xaos yaratmağa yönələn aktlar və suiqəsdlər həyata keçirildi. Son aylar Azərbaycanın bir-birinin ardınca əldə etdiyi uğurlar yenə həmin qınında yatan qüvvələri yenidən narahat etməyə başlayıb və hər vasitə ilə bu uğurlara mane olmağa çalışırlar. Bu qüvvələr həm Qərbdə, həm Şimalda, həm də Cənubda ola bilər. Bəzən üzdə bizə dost və tərəfdaş deyən qüvvələrdən də belə zərbələr gözləməliyik. Odur ki, indilikdə konkret bu hadisələrin hansı qüvvələr tərəfindən idarə olunduğunu söyləmək doğru olmazdı. Bu, bir həqiqətdir ki, dünyanın böyük güclərinin belə bəzən bacarmadıqlarını gənc Azərbaycan dövləti bacarır. Bu isə, çoxlarının ürəyincə deyil və bunu dayandırmağa çalışırlar. Sadəcə, belə qüvvələr Azərbaycanda mövcud olan xalq-iqtidar etimadını və birliyini düzgün hesablaya bilməmişlər.

*- Dağıdıcı müxalifətin, eləcə də, hansısa xarici qüvvələrin təsiri altında olan bəzi şəxslər sosial şəbəkələr vasitəsi ilə insanları kütləvi itaətsizliyə, qarşıdurmalara və işlədikləri strukturların rəhbərlərinə qarşı terror aktları törətməyə çağırışlar edirlər. Belə şəxslərə qarşı sərt tədbirlərin görülməsinə zərurət olduğunu demək olarmı?*

- Sadəcə, sərt deyil, hətta ən sərt tədbirlər görülməlidir. Qanunun bütün gücündən maksimum istifadə olunmalıdır. Çünki indiki halda söhbət bir və ya bir neçə şəxsin, hansısa bir dövlət qurumunun deyil, ümumən dövlətimizin, dövlətçiliyimizin, məhz bəzi qüvvələrin həzm edə bilmədiyi gerçək müstəqilliyimizin taleyindən gedir. O yerdə ki, Vətənin, Dövlətin taleyi məsələsi var, orda hər kəsin, hər bir toplumun istəyi arxa plana keçməlidir. Bu baxımdan, bəzi müxalif qüvvələrin mövqeyini anlamaq olmur. Axı hakimiyyətə, iqtidara müxalif olmaq, dövlətə, dövlətçiliyə müxalif olmaq deyil! Baxın, yaxın keçmişdə Türkiyədə baş verən məlum dövlət çevrilişinə cəhd zamanı qardaş ölkənin bütün siyasi partiyaları, o cümlədən, ən radikal müxalif qüvvələr iqtidarla vahid mövqedən çıxış etdilər. Nəticədə, Türkiyə dünya güclərinin rəvac verdiyi böyük bir təhlükədən qurtuldu. Görünür, bizdə hələ də müxalifətçilik məsuliyyətini anlamayan siyasətçilər, daha doğrusu, siyasi oyunbazlar yetkinləşmək istəmirlər. Kim bilir, bəlkə də bu hadisələrin törədilməsinə rəvac verən qüvvələr, həm də müxalifətdən biznes kimi yararlananları idarə edənlərdir! Maliyyəsini verdiyi müxalifətə də belə mövqe nümayiş etdirməyi göstəriş verirlərsə, onlar da bu göstərişə əməl etmək zorundadırlar. Belə də bu siyasi oyunbazlar sabah yenə özlərini vətənpərvər və xalqsevər kimi təqdim edəndə, kim onların səmimiyyətinə inanacaq? Məncə, onlar ən azı özlərinin gələcəyi naminə bu cür çağırışları pisləməli və siyasi ambisiyalarını kənara qoyub, azərbaycançılıq ideologiyası ətrafında xalqla bir olmalıdırlar. Yoxsa qazanacaqları qəpik-quruşun əvəzinə, olan-qalan nüfuzlarını da itirəcəklər.

*- Ümumiyyətlə, radikal müxalifətin ölkəmizə qarşı bu qərəzi nə ilə bağlıdır?*

- Demokratik ölkədə müxalifətin mövcudluğu təbii və qaçılmazdır. Azərbaycan da demokratik ölkədir və iqtidara müxalif siyasi qüvvələrin mövcudluğu da, əslində, dövlətin güclənməsinə, insanların sosial durumunun yaxşılaşmasına, demokratik dəyərlərin irəliləməsinə xidmət etməlidir. Lakin elə taleyüklü məsələlər var ki, o zaman siyasi ambisiya kənara atılmalı, iqtidar-müxalifət birliyi ortaya qoyulmalı və problemin həllində vahid mövqedən çıxış etməlidir. Təəssüf ki, Azərbaycanda bütün sahələr sürətlə inkişaf etsə də, müxalifətçilik mədəniyyəti yerində saymaqda davam edir. Bizim radikal müxalifətimiz 25-30 il əvvəlki müxalifətçilik ənənəsindən qurtula bilmir. Meydan psixologiyası, eyforiyaya qapılma, özünəvurğunluq və bir də varlanma hissi onların realist olmalarına, hadisələrə daha obyektiv və daha geniş prizmadan yanaşmalarına imkan vermir. Əslində, bununla iqtidara zərbə vurduqlarını düşünsələr də, nəticədə, ən böyük zərbəni özlərinə vurmuş olurlar. Hər bir siyasi qüvvənin başlıca ehtiyacı olan xalq etimadından məhrum olurlar ki, bu da gələcəkdə siyasi qələbədən məhrum olmalarında əsas amil olur. Ona görə də, radikal müxalifət papağını qabağına qoyub düşünməli, dövlətə və dövlətçiliyə qarşı yönəlmiş indiki mövqelərində ciddi redaktə etməlidirlər. Əks-təqdirdə, zərərçəkən özləri olacaq.

**GÜLYANƏ**

# Təxribatlar uğurlara kölgə sala bilmədi

## *Gəncə şəhərində törədilən hadisələrdə xarici maraqlı dairələrin izi var*

***Son illər Azərbaycanda bütün sahələrdə müşahidə olunan yüksək inkişaf dinamikası əksər ölkələr üçün nümunəyə çevrilib. Azərbaycan iqtisadiyyatının 15 il ərzində 3 dəfə artması, dövlət büdcəsinin gəlirlərinin 10 dəfədən çox yüksəlməsi həyata keçirilən iqtisadi və infrastruktur islahatları nəticəsində yaranan yeni iqtisadi münasibətlərin səmərəli fəaliyyətinin inkaredilməz reallığıdır.***



Amma araşdırmalara əsaslanaraq, demək olar ki, Azərbaycanın dünyada yerinin və rolunun möhkəmlənməsi, nüfuzunun yüksəlməsi yerli qüvvələrlə yanaşı, xarici dairələri də ciddi narahat edir. Məhz bu səbəbdən, hər vəchlə Azərbaycanın inqilabi dəyişikliklərə bərabər uğurlarına kölgə salmaq üçün mümkün vasitə və üsullardan istifadə etməkdən çəkinmirlər. Son günlər Gəncədə baş verən və bu hadisələrdə, artıq bir sıra xarici maraqlı dairələrin izi olduğu sübut edilməkdə olan hadislər də bu qəbildəndir. Gəncə şəhərində icra hakimiyyətinin başçısına qarşı həyata keçirilən terror aktının ardınca iki polis zabitinin radikal dini cərəyanlar tərəfindən kəsici-deşici alətlərlə qətlə yetirilmələri xaricdəki pozucu qurupların planlaşdırdıqları dövlətə və dövlətçiliyimizə qarşı məkrli planların tərkib hissəsidir. Amma o qüvvələr çirkin niyyətlərinə nail ola bilmədilər. Çünki xalq-hakimiyyət birliyi möhkəm əsaslara söykənir. Qanlı cinayəti törədən gənclər düşünmədən Azərbaycan dövlətinə və müstəqilliyimizə vurulan zərbə ilə tariximizin qara səhifəsinə çevrildilər. Şübhəsiz ki, Azərbaycanın güclü dövləti və qüdrətli ordusu var. Bu baxımdan, xarici qüvvələrin pozuculuq aktları törətməsi mümkünsüzdür.

### Azərbaycan diqtə edən dövlətə çevrilib

Birmənalı tərzdə demək olar ki, Azərbaycan regionun lider dövlətidir. İnsanların həyat şəraiti günü-gündən daha da yaxşılaşır. “Sabitlik olan yerdə iqtisadi uğurlara da nail olmaq mümkündür” prinsipinə uyğun olaraq, ictimai-siyasi sabitlik mövcuddur. Azərbaycan Prezidenti İlham Əliyev bildirir ki, “bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşlarının maraqları dayanır”. Ölkəmizin iqtisadiyyatının qlobal böhranın həmlələrinə dayanaqlı müqaviməti dünyanın əksər iqtisadi və maliyyə mərkəzlərinin hesabatlarında öz əksini tapıb.

Davos İqtisadi Forumunun hesabatında Azərbaycan dünyanın 35 ən rəqabətqabiliyyətli ölkəsindən biri, inklüziv inkişaf baxımından isə inkişafda olan ölkələr arasında üçüncüdür. Bu göstəricilərin əldə olunmasında Azərbaycan hökumətinin azad sahibkarlığın inkişafı istiqamətində gördüyü tədbirlərin rolu əvəzsizdir. Hökumət sahibkarlığın inkişafına manеə olan bütün neqativ hallara qarşı mübarizə aparmaqla yanaşı, dünya praktikasında bu sahədə mövcud olan mütərəqqi təcrübənin tətbiqi baxımından çox işlər görür. İnvestisiyaların və ixracın dövlət tərəfindən təşviq edilməsi ölkə iqtisadiyyatına həm daxili, həm də xarici investorların cəlb edilməsi işində əvəzsiz rol oynayır. Bu günə qədər isə 229 sahibkar 257 investisiya təşviqi sənədi alıb. Nəticədə, reallaşacaq layihələrə 2,3 milyard manat sərmayə qoyulub. Əldə olunan iqtisadi uğurlarla yanaşı, siyasi sabitlik də diqqəti çəkir.

### Azərbaycan nümunəvi model yaradıb

Bu günlər beynəlxalq təşkilatların hesabatlarında 25 sabit, sakit dövlətlər arasında Azərbaycanın adının əks olunması qeyd olunlara bariz nümunə sayıla bilər. Bu baxımdan, düşmən dəyirmanına su tökən, sapı özümüzdən olan balatalar başa düşməlidirlər ki, Azərbaycan 1990-cı illərin Azərbaycanı deyil. Ölkəmiz dinamik inkişafa və siyasi-iqtisadi uğurlara malik dövlətdir. Bu gün Azərbaycan dünyada söz sahibidir, dövlətimizin rəyi və rolu olmadan regionda heç bir layihə həyata keçirilə bilməz. Azərbaycanın müstəqilliyi Ulu Öndər Heydər Əliyevlə bağlıdır. Dahi Öndər Heydər Əliyev xalqın çağırışı ilə ikinci dəfə hakimiyyətə gəldikdən sonra çox terrorların, iğtişaşların qarşısını aldı və müstəqilliyimizi qoruyub saxlaya bildi. Sübuta yetirildi ki, Ulu Öndər Heydər Əliyev olmasaydı, Azərbaycan parçalanmış, viran qalmış, müstəqilliyini itirmiş bir ölkə olacaqdı. Bugünkü güclü-qüdrətli Azərbaycan Dahi Öndər Heydər Əliyevin qurduğu dövlətdir. Xoşbəxtik ki, Onun müdrik siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir. Azərbaycanın öz sərvətləri, siyasəti, idmanı ilə dünyada tanınmış və nüfuzlu ölkə olması hər bir vətəndaşın qürur mənbəyidir.

**Zakir Rəhimli**

# Narkotiklərlə mübarizə tədbirləri qətiyyətlə davam etdirilir

Daxili işlər orqanları narkotik vasitələrin qanunsuz dövriyyəsi və kultivasiya yolu ilə yetişdirilən narkotik tərkibli bitkilərin aşkarlanması istiqamətində tədbirləri qətiyyətlə davam etdirirlər. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Abşeron Rayon Polis İdarəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Ağcabədi rayon sakini, əvvəllər məhkum olunmuş Elşən Ağayevin Xırdalanda kirayədə yaşadığı mənzilindən 13 qrama yaxın heroin, 2,7 kiloqrama yaxın marixuana, həmçinin güclü təsiredici xüsusiyyətə malik 51 qram metamfetamin və 30 ədəd metadon həbi aşkarlanaraq götürülüb.

Sabirabad Rayon Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Yaxa-Dəllək kənd sakini, əvvəllər məhkum olunmuş Mahmud Nağıyevin həyətyanı sahəsindən kultivasiya yolu ilə yetişdirilmiş 11 çətənə kolu və 250 qram marixuana götürülüb. Saatlı Rayon Polis Şöbəsinin əməkdaşları isə Mustafabəyli kənd sakini Elçin Süleymanovun həyətyanı sahəsindən kultivasiya yolu ilə yetişdirilmiş 6 çətənə kolu aşkarlayıblar. Faktlarla bağlı cinayət işləri başlanılıb. Bu istiqamətdə tədbirlər davam etdirilir.

# Xırdalanda ticarət mərkəzində baş verən yanğın zamanı 2 nəfər yüngül yanıq xəsarəti alıb

Fövqəladə Hallar Nazirliyi (FHN) Xırdalan şəhərində ticarət mərkəzində baş verən yanğın hadisəsi ilə bağlı məlumat yayıb.

FHN-dən AZƏRTAC-a bildirilib ki, Abşeron rayonu, Xırdalan şəhərində ticarət mərkəzinin ərazisində yerləşən mağazanın alkopandan ibarət üzlüyü 340 m? sahədə və qapısı yanıb. Yanğın zamanı 2 nəfər yüngül yanıq xəsarəti alıb. Mağazanın qalan hissəsi yanğından mühafizə olunub. Yanğın yanğın bölmələri tərəfindən söndürülüb.

# Uşaqların sağlamlıq və təhsil hüququ

***Dünyada təxminən 130 milyon məktəb yaşlı uşaq məktəbə getmir. Onların üçdə ikisi qız uşağıdır. Bu uşaqların fundamental - təhsil almaq hüququ pozulmuşdur. Hesablamalara görə, ikinci minilliyin əvvəlinə dünyada 850 milyon, yəni dünya əhalisinin altıda bir hissəsi savadsız olacaqdır. Statistika problemin nə dərəcədə ciddi olduğunu təsvir edir.***

Təhsil sosial və iqtisadi inkişafın mərkəzi prinsipi və aparıcı faktorudur. Digər sahələrdə olduğu kimi, Konvensiya təhsildə də uşağın hüquqlarının təmin olunmasını ən vacib bir məsələ kimi qeyd edir.

Uşağın təhsilə olan hüququ bütün uşaqlara aiddir və bu, öz növbəsində, həmçinin, təhsilin sağlam, ayrı-seçilik olmayan və təhlükəsiz mühitdə həyata keçirilməsini nəzərdə tutur. Konvensiya təhsil hüququnu, həmçinin, gender, xüsusi qayğıya ehtiyaclılıq, sağlamlıq, qidalanma və uşağın iştirakının təmin edilməsi kimi faktorlarla əlaqələndirir.

Konvensiyanın iki maddəsi sırf olaraq təhsillə bağlıdır. 28-ci maddə uşağın təhsil almağa olan hüququ haqda danışır və uşağa pulsuz icbari təhsil verməyi və onun ləyaqətinə hörmətlə yanaşmağı tələb edir. 29-cu maddə isə uşağın şəxsiyyətinin, istedadının, əqli və fiziki bacarığının tam həcmdə inkişafı üçün təhsilin nə dərəcədə zəruri olduğunu dövlətlərə göstərir və onları uşağın valideynləri, mədəni özgürlüyü, dili və mənəvi dəyərlərinə hörmət bəsləməyə çağırır.

Təhsil hər zaman, hətta fövqəladə hallarda belə uşağın ayrılmaz və inkaredilməz hüququ kimi qalır. Hərbi münaqişələr dünyanın bir çox yerlərində böyük dağıntılar və fəlakətlərə səbəb olur. Lakin onlar da uşaqların təhsilə olan hüququnu pozmamalıdır.

Sağlamlıq imkanları məhdud olan şəxslərin təhsili (xüsusi təhsil) haqqında 5 iyun 2001-ci il tarixli AR Qanununun preambulasında deyilir ki, bu qanun sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) sahəsində yaranan münasibətləri tənzimləyir, xüsusi təhsilin təşkilati-hüquqi və iqtisadi əsaslarını müəyyən edir. Qanunun 1-cü maddəsində deyilir ki, xüsusi təhsilin məqsədi sağlamlıq imkanları məhdud şəxslərə zəruri bilik, bacarıq və vərdişlər aşılamaqla onların cəmiyyətə uyğunlaşmasını, o cümlədən, özünəxidmət vərdişlərinin yaradılmasını, əmək fəaliyyətinə və ailə həyatına hazırlanmasını təmin etməkdən ibarətdir.

Xüsusi təhsil sahəsində dövlətin vəzifələri isə 4-cü maddə ilə aşağıdakılar hesab edilir: sağlamlıq imkanları məhdud şəxslərin bacarıq və imkanları nəzərə alınmaqla dövlət hesabına təhsil almalarına təminat verilməsi; xüsusi təhsil sahəsində məqsədli dövlət proqramlarının hazırlanması və həyata keçirilməsi; xüsusi təhsilin dövlət standartlarının müəyyən olunması; sağlamlıq imkanları məhdud şəxslərin bacarıq və imkanlarına uyğun peşələr üzrə hazırlıq almalarına şərait yaradılması; sağlamlıq imkanları məhdud şəxslərin peşə-ixtisas təhsili almalarına təminat verilməsi; sağlamlıq imkanları məhdud şəxslərə qanunvericilikdə müəyyən edilmiş müavinətlər verilməsi; xüsusi təhsil sahəsində kadrların hazırlanması, yenidən hazırlanması və ixtisaslarının artırılmasına təminat verilməsi; xüsusi təhsili həyata keçirən müəssisələrə vergi və rüsumların ödənilməsində qanunvericiliklə müəyyən olunmuş güzəştlərin tətbiq edilməsi; xüsusi təhsilin dövlət vəsaiti hesabına maliyyələşdirilməsi; xüsusi təhsili həyata keçirən müəssisələrin maddi-texniki bazasının möhkəmləndirilməsi.

4 fəsil və 29 maddədən (I fəsil - Ümumi müddəalar - maddə 1-4; II fəsil - Sağlamlıq imkanları məhdud şəxslərin, onların valideynlərinin və ya digər qanuni nümayəndələrinin xüsusi təhsil sahəsində hüquq və vəzifələri - maddə 5-7; III fəsil - Xüsusi təhsilin təşkili - maddə 8-22; IV fəsil - Xüsusi təhsil sisteminin idarə olunması - maddə 23-29). ibarət Qanunun 23-cü maddəsində deyilir ki, xüsusi təhsili həyata keçirən dövlət müəssisələri müvafiq icra hakimiyyəti orqanı tərəfindən idarə olunur. Müvafiq icra hakimiyyəti orqanı xüsusi təhsil üzrə proqramlar, o cümlədən, əlaqəli proqramlar hazırlayır və həyata keçirir, sağlamlıq imkanları məhdud şəxslərin sağlamlığının mühafizəsinə, onların çatışmazlıqlarının korreksiyasına, sosial adaptasiyasına, tibbi-sosial reabilitasiyasına, əlilliyin profilaktikasına yönəldilmiş birgə tədbirlər görür.

Bu sahədə növbəti dövlətdaxili normativ-hüquqi akt AR-in 31 may 2002-ci il 336-11 Q saylı Qanunu ilə təsdiq edilmiş, Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında" Əsasnamədir. Əsasnamə yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaların təşkilinin və fəaliyyətinin hüquqi əsaslarını müəyyən edir. Komissiyanın əsas məqsədi yetkinlik yaşına çatmayanlara tərbiyəvi təsir göstərməkdən, onların hüquqlarını və qanuni mənafelərini qorumaqdan, davranışına nəzarət etməkdən, qanunazidd əməllərin qarşısını almaqdan, göstərilən məsələlərdə dövlət və yerli özünüidarəetmə orqanlarının mülkiyyət formasından asılı olmayaraq müəssisələrin, idarələrin və təşkilatların fəaliyyətini əlaqələndirməkdən ibarətdir.

Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar sisteminə aşağıdakılar daxildir: rayon (şəhər) komissiyaları - yerli komissiyalar; müvafiq icra hakimiyyəti orqanı yanındakı komissiya; Naxçıvan Muxtar Respublikasının müvafiq icra hakimiyyəti orqanı yanındakı komissiya; AR-in müvafiq icra hakimiyyəti orqanı yanındakı komissiya.

Komissiyalar müvafiq icra hakimiyyəti orqanları yanında həmin orqanlar tərəfindən sədr, məsul katib (katib) və uşaqlarla iş üzrə məsləhətçi-psixoloq da daxil olmaqla, 9-11 üzvdən ibarət tərkibdə yaradılır.

Hər il dünyada 12 milyona yaxın uşaq qarşısı alına bilən müxtəlif xəstəliklərdən - diareya, malyariya, pnevmoniya və s. vəfat edirlər. Bəzi ölkələrdə doğulan hər beş uşaqdan biri heç beş yaşına qədər yaşaya bilmir. Bu uşaqların çoxunun lazımi qidaya və sağlam yaşamaq, inkişaf etmək üçün ilkin tibbi yardıma ehtiyacı vardır.

Konvensiyanın müdafiə və təbliğ etdiyi hüquqlar uşaqların tibbi xidmətə olan bərabər hüquqlarını təmin edir və dövlətlər tərəfindən tibbi xidmətlərin lazımi səviyyədə bütün uşaqlar üçün əlçatan olmasını tələb edir. Konvensiya uşağı evin, ailənin, cəmiyyətin mərkəzində yerləşdirir. Konvensiya bir hüququn başqasını məhdudlaşdırmaması prinsipi əsasında işləyir. Məsələn, uşağın tibbi yardıma olan hüququ onun digər hüquqlarını - təhsil alma, ailədə yaşama və s. hüquqlarını məhdudlaşdıra bilməz.

Konvensiya arzular və istəklər siyahısı deyildir. O, dövlətlər tərəfindən uşaqların tibbi yardıma olan ehtiyaclarını ödəyən lazımi praktiki addımların atılmasını tələb edir. Dövlətlər uşaq ölümünün azaldılması, ilkin tibbi yardımın inkişafı, aclıq və doğuşqabağı və doğuşdan sonra aparılan tibbi yardımı inkişaf etdirməyi öz öhdəliklərinə götürürlər.

Uşaqların tibbi yardıma olan huquqları Konvensiyanın 24-cü maddəsində yazılmışdır: "İştirakçı dövlətlər uşağın ən təkmil səhiyyə sistemi xidmətlərindən, xəstəliklərin müalicəsi və sağlamlığın bərpası vasitələrindən istifadə etmək hüququ olduğunu təsdiq edirlər".

Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında 17 iyun 2003-cü il tarixli AR Qanunu körpələrin və erkən yaşlı uşaqların ana südü ilə qidalanmasının təbliği və müdafiəsinin başlıca istiqamətlərini, süni qida məhsullarının istehsalı, idxalı, reklamı və satışına nəzarətin təşkilati-hüquqi əsaslarını müəyyən edir, bu sahədə yaranan münasibətləri tənzimləyir.

4 fəsil və 14 maddədən (I fəsil - Ümumi müddəalar - maddə 1-3; II fəsil - Uşaqların ana südü ilə qidalanmasının müdafiəsi - maddə 4-6; III fəsil- Süni qidalanmanın tənzimlənməsi - maddə 7-10; IV fəsil - Tibb fəaliyyəti subyektlərinin, istehsalçıların və distribütorların hüquq və vəzifələri - maddə 11-12; V fəsil - Yekun müddəaları -maddə 13-14) ibarət Qanunun 3-cü maddəsi ilə uşaqların qidalanmasının müdafiəsi sahəsində dövlət siyasətinin əsas istiqamətləri kimi bunlar fərqləndirilir: uşaqların qidalanması ilə bağlı məqsədli dövlət proqramlarının hazırlanması və həyata keçirilməsi; uşaqların təhlükəsiz və adekvat qidalanmasına dövlət təminatı; ana südünün üstünlüyünü təsdiq edən, döşlə əmizdirilməni müdafiə edən təbliğat işinin təşkili və uşaqların sağlam qidalanması sahəsində informasiyanın qanunvericilikdə müəyyən olunmuş qaydada yayılması; süni qida məhsullarına dövlət nəzarətinin təşkili; uşaqların ana südü ilə qidalanmasının müdafiəsi məqsədi ilə analara maddi, hüquqi və tibbi-sosial təminat verilməsi.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Bu sahədə digər qanunvericilik aktı 22 iyun 1999-cu il tarixli "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" AR Qanunudur.

10 maddədən ibarət bu Qanun valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların, habelə, onların arasından 23 yaşınadək olan şəxslərin sosial müdafiəsi üzrə dövlət təminatının məzmununu, tədbirlərini müəyyən edir, həmin təminatın verilməsi və həyata keçirilməsi ilə əlaqədar yaranan münasibətləri tənzimləyir. Qanunla valideynlərini itirmiş uşaqlar hər iki valideyni vəfat etmiş 18 yaşınadək olan şəxslərdir; valideyn himayəsindən məhrum olmuş uşaqlar hər iki valideyni məlum olmayan; valideynlik hüquqlarından məhrum edilən və ya valideynlik hüquqları məhdudlaşdırılan; xəbərsiz itkin düşmüş, fəaliyyət qabiliyyəti olmayan (fəaliyyət qabiliyyəti məhdudlaşdırılan) hesab edilən, ölmüş elan edilən; azadlıqdan məhrum edilmə yerlərində cəzasını çəkən; uşaqlarının tərbiyə edilməsindən və ya onların hüquq və mənafelərinin müdafiəsindən imtina edən; uşaqlarını tərbiyə, müalicə, əhalinin sosial müdafiəsi və digər analoji müəssisələrdən götürməkdən imtina edən; qanunla nəzərdə tutulmuş qaydada digər hallarda valideyn himayəsindən məhrum hesab edilən 18 yaşınadək şəxslərdir.

Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların tam dövlət təminatı-valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara müvafiq dövlət və ya bələdiyyə müəssisəsində, qəyyumun (himayəçinin) ailəsində olduqları müddətdə pulsuz yemək, paltar və ayaqqabı dəsti verilməsi, yaşaması, təhsil alması və tibbi xidmət göstərilməsi və ya onların tam dəyərinin dövlət büdcəsi hesabına ödənilməsidir.

3-cü maddənin tələblərinə görə valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların, habelə, onların arasından olan şəxslərin sosial müdafiəsi mövcud qanunvericiliyə uyğun olaraq dövlət tərəfindən təmin olunur və qorunur. Müvafiq icra hakimiyyəti orqanları valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların və onların arasından olan şəxslərin sosial müdafiəsi üzrə məqsədli proqramları hazırlayır və həyata keçirir, onlar üçün mərkəzləşmiş xüsusi yaşayış yerləri, habelə, təhsil, sosial xidmət və digər müəssisələrin bazasında sosial uyğunlaşma və reabilitasiya üzrə dövlət müəssisələri yaradırlar. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların, habelə, onların arasından olan şəxslərin sosial müdafiəsi üzrə maliyyə xərcləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən minimum dövlət sosial standartlarına əsaslanır.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

## Çox oturmaq ölüm riskini artırır

Amerikanın Xərçəng Cəmiyyətinin araşdırmasına görə, idmanla məşğul olunsa belə, çox oturmaq 13 xəstəlikdən ölüm riskini artırır. SİA xəbər verir ki, tədqiqatın nəticələrinə əsasən, gündə 6 saat və ondan çox oturanların erkən ölüm riski üç saatdan az oturanlara nisbətən 19 faiz daha yüksəkdir.

Araşdırma nəticəsində çox oturmağın xərçəng, ürək xəstəlikləri, insult, diabet, xroniki obstruktiv ağciyər xəstəliyi, ağciyər və qaraciyər xəstəlikləri, mədə xorası və digər həzm sistemi xəstəlikləri, Parkinson, Alzeymer, mərkəzi sinir sistemi və əzələ-skelet sistemi xəstəlikləri səbəbindən ölüm riski ilə əlaqəli olduğu və hətta intihar ehtimalını artırdığı müəyyənləşib. Tədqiqat zamanı 128 min qadın və kişinin sağlamlıq haqqında məlumatlarına baxış keçirilib. Xroniki xəstəlikləri olmayan bu insanların təxminən 49 mini araşdırma aparılan 21 il ərzində vəfat edib.

Mütəxəssislər çox oturmağın xərçəngdən ölüm riskini 10 faiz artırdığını, əzələ-skelet sistemi xəstəliklərindən isə ölüm təhlükəsini 60 faizə yüksəltdiyini deyiblər. Az oturmağın faydalı olduğunu qeyd edən tədqiqatçılar bir saat oturduqdan sonra iki dəqiqə ayaq üstə dayanmağın və ya yüngül hərəkətlər etməyin qanda xolestrol, səviyyəsinə, şəkər və təzyiqə təsir etdiyini diqqətə çatdırıblar.

## "Planetin ən cazibədar qadını" ana olacaq

"Maxim" jurnalının versiyasına görə, planetin ən cazibədar qadını olan model Keyt Apton ilk dəfə ana olacaq. Hamiləliyi barədə o, "Instagram"-da yazıb. 26 yaşlı Keyt karyerasının əvvəlində plus-size model olsa da, sonradan arıqlayıb. "People" jurnalına görə də o, 2014-cü ilin ən cazibədar qadını olub. Apton həmçinin "Victoria's Secret"in alt geyimlərinin üzü olub və bir sıra filmlərdə yer alıb. 2017-ci ildə Castin Verlandera ilə ailə həyatı qurub.

## ŞOK İDDİA: "Maykl Ceksonu atası xədim edib"



Ötən illərin əfsanəvi pop ulduzu olan Maykl Ceksonın ölümündən 9 il keçməsinə baxmayaraq, onun haqqında iddiaların ardı-arası kəsilmir. Sputnik Azərbaycan Türkiyə mətbuatına istinadən xəbər verir ki, pop musiqisinin kralının həkimi Konrad Murray bu dəfə Ceksonun atasını ittiham edib. Murray deyib ki, musiqiçinin atası Cou Cekson Maykl Ceksona səsinin qorunması üçün kimyəvi dərman verərək, onu xədim (kişilik gücü olmayan şəxs - red.) edib: "O, uşaqlarına qarşı qəddar davranıb. O, uşaqları üçün tarixdə ən qəddar ata idi. Maykl Cekson atasından çox qorxurdu". Qeyd edək ki, həkim bir neçə il öncə də müğənninin səsinin qalınlaşmasının qarşısını almaq üçün ona hormonal pozuntu yaradan dərman vurulduğunu iddia etmişdi.

Xatırladaq ki, Konrad Murray özü Maykl Ceksonu bilməyərəkdən öldürməkdə ittiham olunaraq, 4 il həbs cəzası alıb. O, 2 il həbsdə qalandan sonra nümunəvi davranışına görə həbsdən azad edilib.

## FIFA dünya çempionatında iştirak edən komandaların mükafatını açıqlayıb

Rusiyada keçirilən dünya çempionatındakı qələbə Fransa millisinə FIFA tərəfindən 38 milyon dollar pul mükafatı qazandırıb. FIFA-nın rəsmi saytında yer alan xəbərə görə, dünya çempionatının ümumi mükafat fondu 400 milyon dollar təşkil edib. Mundialın gümüş mükafatçısı Xorvatiya millisi 28 milyon dollar gəlir əldə edib. Üçüncü yeri tutan belçikalılar 24, İngiltərə yığması isə 22 milyon dollar qazanıb.

Həmçinin dünya çempionatının "play-off" mərhələsinin digər iştirakçılarının da qazandığı məbləğ açıqlanıb. Dörddəbir final mərhələsində mübarizəsini dayandıran Rusiya millisi, İsveç, Braziliya və Uruqvay komandaları 16 milyon dollar, səkkizdəbir finalda turniri tərk edən İspaniya, Danimarka, İsveçrə, Kolumbiya, Argentina, Meksika, Portuqaliya və Yaponiya komandaları isə 12 milyon dollar qazanacaqlar. FIFA qrup mərhələsindəki iştirakçıların hərəsinə 8 milyon dollar verəcək.

## Fransa millisi ikinci dəfə dünya çempionu oldu!




Rusiyada keçirilən futbol üzrə dünya çempionatına yekun vurulub. 32 gün davam edən mundial final matçı ilə başa çatıb. Həlledici qarşılaşmada Fransa və Xorvatiya üz-üzə gəlib. Finala qədər məğlubiyyət acısı yaşamayan rəqiblər dördilliyin ən yaxşısı olmaq üçün mübarizə aparıblar.

Qarşılaşma olduqca gərgin və həyəcanlı bir tempdə keçib. Azarkeşlərin 6 qola şahidlik etdiyi final matçı olduqca maraqlı mübarizəyə səhnə olub. İlk hissəni qapıya cəmi 1(!) zərbə vura bilən Fransa 2:1 hesabı ilə öndə bitirib. İkinci hissədə isə əks hücumlarda diqqətli olan Deşamın komandası daha iki qol vuraraq fərqi artırıb. Llorisin səhvindən yararlanan Mancukiç fərqi azaltsa da, bu, təsəllidən başqa bir işə yaramayıb. Fransa tarixində ikinci dəfə dünya çempionu olub!.

## Bədii gimnastlar 25-ci Azərbaycan çempionatı və Bakı birinciliyində güclərini sınayacaqlar




İsti yay günlərində Milli Gimnastika Arenası növbəti milli yarışa hazırlaşaraq, öz qapılarını bədii gimnastların üzünə açacaq. Belə ki, ən zərif gimnastika növünün nümayəndələri avqustun 10-12-də bədii gimnastika üzrə 25-ci Azərbaycan çempionatı və Bakı birinciliyində güclərini sınayacaqlar. AZƏRTAC xəbər verir ki, fərdi gimnastlar 2002-2010-cu il təvəllüdlü və daha böyük, qrup komandaları isə 2008-2010-cu və 2006-2007-ci il təvəllüdlü yaş kateqoriyasında mübarizə aparacaqlar. Qaliblər fərdi gimnastlar arasında çoxnövçülük xalına görə, qrup hərəkətləri komandalarında ayrı-ayrı alətlərdə çıxışlarına görə və komanda hesabında müəyyənləşəcək.

Üç gün boyunca davam edəcək turnirdə tamaşaçıların əyləncəli vaxt keçirməsi üçün maraqlı müsabiqələr və fləşmoblar da təşkil olunacaq. Yarışlara biletləri arenanın kassasından əldə etmək mümkündür. Biletlərin qiyməti 5 manatdır.

## Azərbaycan cüdoçuları Almaniyada Avropa kubokunun qalibi olublar





Almaniyanın Sarbrüker şəhərində cüdo üzrə Avropa Kuboku yarışına yekun vurulub. Azərbaycan Cüdo Federasiyasının saytında yer alan xəbərə görə, mötəbər turnirin ikinci günü millimiz üçün daha uğurlu olub. Belə ki, təmsilçilərimiz 2 qızıl, 1 gümüş medal qazanıb.

90 kq çəki dərəcəsində ölkəmizi təmsil edən Məmmədəli Mehdiyev bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. +100 kq çəki dərəcəsində isə Azərbaycan finalı yaşanıb. Belə ki, həlledici görüşdə Uşanqi Kokauri və Şahin Qəhrəmanov üz-üzə gəlib. Kokauri qızıl, Qəhrəmoanov isə gümüş medal əldə edib. Bununla da, millimiz Avropa Kuboku yarışını 2 qızıl, 1 gümüş və 3 bürünc medalla başa vurub. Qeyd edək ki, 26 ölkədən 387 (269 kişi, 118 qadın) cüdoçunun qüvvəsini sınadığı qitə turnirdə Azərbaycan millisi 10 cüdoçu ilə təmsil olunub.

## Novak Djokoviç dördüncü dəfə "Uimbldon" tennis turnirinin qalibi olub



Serbiyalı tennisçi Novak Cokoviç karyerası ərzində dördüncü dəfə "Uimbldon" turnirinin qalibi olub. AZƏRTAC xəbər verir ki, 45 milyonluq dollarlıq mükafat fondu olan turnir Londonda keçirilib. Finalda serbiyalı tennisçi Cənubi Afrika Respublikasından olan idmançı Kevin Andersonu məğlub edib - 6:2, 6:2, 7:6. Hər iki finalçı yarımfinal mərhələsində "Uimbldon" turnirində rekorda imza atıblar. Belə ki, Novak və Kevin ən uzun oyun keçirən tennisçilərdir. Yarımfinal mərhələsində Kevin Anderson amerikalı Cona İzneradan (6 saat, 36 dəqiqə), Novak isə Rafayel Nadaldan üstün olub (5 saat, 17 dəqiqə).

Anderson və Djokoviç bu vaxta kimi yeddi dəfə qarşılaşıblar. Yeddi oyunun üçü məhz "Uimbldon" turnirində baş tutub. Ümumilikdə isə altı dəfə serbiyalı, birində isə cənubi afrikalı qalib tərəf olub. Qeyd edək ki, qadınların arasında "Uimbldon" turnirin qalibi almaniyalı Anqelik Kerber olub. O, final mərhələsində Serena Vilyamsı məğlub edib - 6:3, 6:3.

Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500